*Hikmət Hacızadə*

# DİN AZADLIĞI HAQQINDA MƏQALƏLƏR

İçindəkilər:

1. Memorandum (1996)
2. İslam Dünyası Demokratik İslahatlar Ərəfəsində (1997)
3. Müstəqil Azərbaycanda Dini Etiqad Azadliği (1998)
4. "Dini və dünyəvi demokratların" konfransın yaratdığı mənzərə (1998)
5. İnsan Haqları "Xeyrimizə" Pozulursa (2001)
6. Azadlığımızın Hüdudları və Etiqad Azadlığı (2003)

* * *

## 1. Dini işlər üzrə nazir üçün XXI əsrin pravoslavları sektasının sorğusu ilə əlaqədar Memorandum

Hikmət Hacızadənin Kitabxanasında Arxiv 2025

Keçmiş sovet respublikalarında qeyri-ənənəvi dini cərəyanlarla bağlı problemlər cəmiyyət üçün gözlənilmədən meydana çıxıb. Elə Azərbaycanda da dini sektalarla necə rəftar edilməsi həm siyasi hakimiyyətin, həm də sadə adamların vərdiş etmədikləri suallar yaradıb. Problemin bizim cəmiyyət üçün də aktual olduğunu nəzərə alaraq Hikmət Hacızadənin Nyu-Yorkun Kolumbiya Universitetində (Columbia University, New York, NY) test imtahanı zamanı təqdim etdiyi məqaləni oxucuların nəzərinə çatdırırıq. Həmin testdə H. Hacızadə X ölkəsində dini işlər üzrə nazirin müşaviri kimi çıxış edir.

Təsəvvür edin ki, siz 93-cü ildə parlamentin və prezidentin təsdiq etdiyi yeni konstitusiyanı qəbul etmiş X ölkəsində dini işlər üzrə nazirin köməkçisisiniz. Sizin konstitusiyada bu müddəalar var:

Bərabərlik: Hamı qanun qarşısında bərabərdir. Hər kəsin bərabər şəkildə hüquqlarını müdafiə etmək və qanundan faydalanmaq haqqı var.

Dövlət irqi, cinsi, milli, dini mənsubiyyətə görə azlıq statusu və dil mədəniyyətinə görə vətəndaşlar arasında ayrı-seçkilik salmamalıdır.

Dini azadlıq: hamının din və təriqət azadlığı hüququ var.

Milli kilsə: X ölkəsində əsas din və milli kilsə X Pravoslav kilsəsidir.

- X Pravoslav kilsəsi və başqa dini birlik və qruplar dövlətdən ayrı və qanun qarşısında bərabərdirlər;

- ictimai məktəblərdə X Pravoslav kilsəsinin müddəaları mütləq tədris edilməlidir: başqa dini təriqətlərdən olan valideynlər uşaqlarına alternativ təhsil verə bilərlər.

Beynəlxalq hüquq: insan hüquqları və fundamental azadlıqlarla bağlı konstitusiya müddəasını inteqrasiya edərkən məhkəmə bunları nəzərə almalıdır:

a) açıq və demokratik cəmiyyətdə dəyərlərin daha çox inkişaf etməsini;

b) beynəlxalq hüquqa daha çox diqqət yetirilməsini;

v) xarici dövlətlərin qanunvericiliyini.

Kommunizmin süqutundan sonra ölkədə dini qrupların və özünü dini qrup kimi təqdim edən birləşmələrin sayı sürətlə artdı. Keçmiş antikommunistlərin əksəriyyəti bu təşkilatlara üzv olaraq sabiq və mövcud iqtidarı tənqid etmək üçün bu qruplardan platforma kimi istifadə etməyə başladılar.

Hazir qrupların birində meydana çıxmış bir problemlə əlaqədar sizə müraciət edib. özlərini XXI əsrin Radikal Xristianları adlandıran qrupun üzvləri nazirə şikayət ediblər (şikayətin səbəbi məlum deyil).

Üzvlərinin yaydığı sənədlərə və qrupun sabiq üzvlərinin verdiyi məlumatlara görə, bu qrup üzvləri belə hesab edirlər ki, XXI əsr bəşəriyyət tarixində sonuncu əsr olacaq. Və yalnız o kəslər dəhşətli axirət günündən salamat qurtarıb əbədi cənnətə düşəcəklər ki, onlar Tanrı Planlarına uyğun həyat tərzi keçirirlər. öz təriqətlərinə əsaslanan qrup

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

rəhbərliyi tələb edir ki, üzvlər dövlətlə mümkün qədər az əlaqədə olsunlar. Yalnız qrup rəhbərlərinin faydalı hesab etdiyi əlaqələrə icazə verilir.

20 il əvvəl fəaliyyət göstərməyə başlayan qrupun tərkibində 450 nəfər var. Onların əksəriyyəti kommunizmin süqutundan sonra qrupa üzv olanlardır. Deyilənə görə, qrup Qərbin dini birliklərindən maddi yardım alıb.

Qrup qeydiyyatdan keçmək üçün Dini İşlər Nazirliyinə müraciət etməyib, halbuki X ölkəsində dini birliklər haqda qanun məhz bunu tələb edirdi. Qrup üzvlərinin kriminal və ya hər hansı başqa qanun pozuntularında əli olduğu haqda heç bir məlumat yoxdur.

Qrupun yeni üzvlərindən olan mühafizəkarlar heç bir icazə almadan X ölkəsinin paytaxtında divarlara plakatlar yapışdırır, broşüralar nəşr edib yayırlar. Materialların tərkibi belə olur:

1. Qrupun dini təriqətinin mahiyyəti.

2. İndiki iqtidarın, keçmiş kommunist hakimiyyətinin əleyhinə olan, həm də AB və ABŞ-ın artan təsirinə qarşı yönəlmiş çıxışlar.

3. Bu dini qrupun üstünlükləri haqda məlumatlar.

21 əsrin RX-si dövlətə iki sorğu ilə müraciət edib:

1. Qrup dövlət radiosunda (bu günədək bütün radiostansiyalar dövlətin əlindədir) çıxış etmək imkanı əldə etmək üçün informasiya nazirinə müraciət edib. Mövcud qaydalara görə, dini verilişlər arasında verilişlərin vaxtı belə bölünür: Pravoslav kilsəsi 75 faiz, rəsmi qeydiyyatdan keçmiş 10 kilsəyə isə (katoliklər, müsəlmanlar, yəhudilər, baptistlər və b.) qalan 25 faiz.

2. Qrup həm də təhsil nazirinə müraciət edib ki:

a) 21-ə RX möminlərinin uşaqları məktəblərdə məcburi X Pravoslav kilsəsi tədrisindən azad edilsin.

b) Qrupun "mənəvi lideri"nə icazə verilsin ki, qrup üzvlərinin uşaqlarına öz dini təriqətlərini tədris etsin (qeydiyyatdan keçmiş başqa qrupların buna ixtiyarları çatır).

v) Dindarların 5-ci sinifdən yuxarı siniflərdə oxuyan qız uşaqlarına icazə verilsin ki, orta məktəblərdə məcburi təhsildən azad olunsunlar. Çünki Tanrı qaydalarına görə, bu yaşda

HİKMƏT HACIZADƏNİN Arxiv 2023 KİTABXANASINDAN

olan qızlar üçün evdə xüsusi evdarlıq dərsləri keçilməlidir (qanuna görə isə, bütün uşaqlar 8 illik təhsil almalıdırlar).

İnformasiya və təhsil nazirləri dini işlər üzrə nazirə sorğu göndərərək xahiş ediblər ki, bu məsələlər üzrə cavab hazırlasın.

Dini işlər üzrə nazir bu haqda memorandum (7 səhifəlik) hazırlamağınızı xahiş edir. Nazir həmçinin bilmək istərdi ki, sorğuya rədd cavabı verilərsə, bu, bizim konstitusiyamıza və beynəlxalq hüquq normalarına zidd olmazmı?

# MEMORANDUM

*Bizlərdən hər birimiz azlıqda qala bilərik*

X Respublikasının dini işlər üzrə nazir müavinindən dini işlər üzrə nazir üçün XXI əsrin Radikal Xristianları dini qrupu üzvlərinin sorğusu ilə əlaqədar memorandum

Möhtərəm Nazir!

XXI əsrin Radikal Xristianları (21-ə RX) dini qrupu üzvlərinin müraciəti ilə bağlı verdiyiniz sorğunun cavabında bəzi məsələləri açıqlamaq istəyirəm.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASI

Əgər sizin məktubunuzu doğru başa düşərək sətiraltı mənaları düz anlamışamsa, siz 21-ə RX qrupunun tələblərini rədd etmək istəyirsiniz, həm də sizin imtina etməyiniz hüquqi cəhətdən əsaslandırılmalıdır ki, ölkəmiz dünya birliyində qayda-qanuna əməl edən ölkə kimi tanınsın.

Sizi inandırım ki, bizim qanunvericiliyə görə, 21-ə RX-nin tələblərini yerinə yetirmək mümkün olduğu kimi, onlardan imtina etmək də mümkündür. Bu zaman dünya birliyinin münasibətinə görə çox narahat olmağa da dəyməz. Dünya birliyi insan haqlarının bir qədər pozulması hallarını bizə bağışlamağa hazırdır. Axı biz başqa ölkələrin (məsələn, Böyük Britaniyanın) 700 ilə keçdiyi demokratiya yoluna yenicə qədəm qoymuşuq. Demək ölkəmizdə əsl qayda-qanun yaratmaq üçün vaxtımız yetərincədir.

Mürtəce müxalifətə qarşı çoxsaylı güzəştlərimizin nəticəsi olan konstitusiyamız ziddiyyətlərsiz deyil. Məsələn, konstitusiyada bir tərəfdən dini etiqad azadlığı, bütün etiqadların qanun qarşısında bərabərhüquqluluğu, vətəndaşlar arasında dini prinsip üzrə ayrı-seçkiliyin qadağan edilməsi təsbit olunduğu halda həm də əsas qanunumuz X Pravoslav kilsəsini "milli" kilsə elan edir və məktəblərdə bu kilsə müddəalarının tədrisini məcburi hesab edir.

Bizim qanunvericiliklə beynəlxalq hüquq arasındakı qarşılıqlı münasibətlərə gəlincə, bu məsələ də konstitusiyamızda aydın şərh olunmayıb. Məsələn, bizim əsas qanunda beynəlxalq müqavilələrin milli qanunvericiliyimizdən üstün olması (Azərbaycanın (Qafqazdakı yeni müstəqil dövlət) konstitusiyasında olduğu kimi) dəqiq göstərilməyib.

Bir daha təkrar edirəm: biz qeyri-mükəmməl qanunvericiliyimizin köməyi ilə 21-ə RX sorğusuna hər hansı cavabı hüquqi baxımdan əsaslandırmaq iqtidarındayıq. Bəlkə də gənc respublikamızın əsasını qoyan dahi rəhbərlərin müdriklikləri də elə bununla əlaqədardır.

Təklif edərdim ki, sağlam dərrakəyə əsaslanaraq - bizim konstitusiya isə məhz belə dərrakədən məhrumdur - bir qərara gələk ki, milli maraqlarımız baxımından 21-ə RX-nin hansı tələblərinə icazə vermək olar, hansılarına yox. Milli maraqlarımızın mahiyyəti isə, xanım nazir, bizə daha yaxşı məlumdur - nəinki şəhərin küçələrini biabırçı şüarlarla bəzəyib XXI əsrdə dünyanın axırını gözləyən bu sərsəmlərə (məndə olan məlumata görə, dünyanın axırı 27-ci əsrə təsadüf edəcək, o vaxta isə biz yəqin ki, çatmayacağıq).

1. - 21-ə RX üzvünə milli radioda çıxış etmək üçün vaxt ayrılsın?

- Qətiyyən.

Xanım nazir, respublika vətəndaşlarının 21-ə RX üzvlərinin davranışları haqda haqlı şikayətlərini araşdıraraq, bununla əlaqədar Milli Təhlükəsizlik Nazirliyindən aldığımız materialları nəzərdən keçirərək mən də sizin kimi bu nəticəyə gəlirəm ki, köhnəliyə meyl edən və sevimli prezidentimizdən daim narazılıq edən adamlar üçün milli radioda vaxt ayırmaq sərsəmlik olardı. əminəm ki, AB və ABŞ-da olan dostlarımız (21-ə RX fəalları daim onları təhqir edir) bu qərarımızı təmkinlə qarşılayacaq. Axı nə səbəbə biz özümüz kiçik radikal qrupları məşhurlaşdırmalıyıq? Konstitusiyamız onsuz da bu qruplara xeyli böyük hüquqlar verir.

Çox təəssüf ki, tələblərin rədd edilməsini 21-ə RX-nin Dini İşlər Nazirliyində qeydiyyatdan keçməməsi ilə əsaslandıra bilmərik. Siz bir fikir verin ki, bu cəmiyyətə zidd olan şəxsiyyətlər qeydiyyatdan keçməkdən imtina ediblər.

Arxiv 2025

Qeydiyyatdan keçməmək səbəbinə görə milli radioda çıxış etmək üçün vaxt ayrılmaması bizim konstitusiyaya ziddir. Konstitusiyamızda vətəndaşlar və təşkilatlar üçün ictimai fəaliyyət azadlığı və öz baxışlarını yaymaq hüququ ilə bağlı müddəalar var.

PEW FELLOW-96 üzvlərindən Krassimir Kanev (Bolqarıstan) Kolumbiya Universitetində belə söylədi ki, bu haqda ATƏT-in Vyana Konfransının Yekun Aktında müddəa da, Avropa Birliyi Parlament Assambleyasının xüsusi qərarı da var. Hər iki sənəddə göstərilir ki, hökumətlər bütün təşkilatların qeydiyyat hüququnu təmin etməli, qeydiyyatdan keçməmiş təşkilatların isə fəaliyyətinə maneçilik törətməməlidirlər.

Təkliflərin rədd edilməsini əsaslandırmaq üçün biz bu müddəalara müraciət edə bilərik.

BMT-nin İnsan Haqları Deklarasiyasının (İHD) 29-cu maddəsi, BMT-nin Vətəndaş hüquqları və Siyasi hüquqlar haqqında Beynəlxalq Paktının (VHSHHBP) 19-cu maddəsinin 3-cü paraqrafı. Bu müddəalara görə, vətəndaşlar öz hüquq və azadlıqlarını həyata keçirərkən ictimai əxlaq normalarını nəzərə almalı və milli təhlükəsizliyə xələl gətirməməlidirlər.

Bundan başqa, bayaq adını çəkdiyim Krassimir Kanevin dediyinə görə, Avropa məhkəməsi insanın dövlət ehtiyatlarından istifadə etməsi hallarını nəzərdən keçirərkən belə qərar verib ki, milli Mass-Mediadan istifadə etmək heç də vətəndaşın mütləq və vacib hüququ deyil.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

2. - 21-ə RX üzvlərinin uşaqlarını X Pravoslav kilsəsi müddəalarının məcburi tədrisindən azad etmək olarmı?

- Bəlkə də olar!

Çox hörmətli nazir xanım. Məncə, 21-ə RX üzvlərinin bu tələblərini rədd etmək çox çətin məsələdir. Demokratik dünya birliyi insanların istəklərinə zidd olan dini doktrinanın tədrisinə məcbur edilməsini insan haqlarının kobudcasına pozulması hesab edir. Bax: İHD-nin 18 və 19-cu maddələri, VHSHHBP-nin 18-ci maddəsinin 1, 2, 4-cü paraqrafı və 19-cu maddəsinin 1-ci paraqrafı;

Beynəlxalq hüquq qaydalarına uyğun olaraq bizim dövlətimizdə yaşı 18-ə çatmamış uşaqlar üçün seçmək hüququ onların valideynlərinə verilir.

Bu halda VHSHHBP-nin 2, 3, 5, 8, 13, 14-cü maddələri, dini prinsip üzrə bütün dözülməzlik və ayrı-seçkilik formalarının aradan qaldırılması deklarasiyasının 5-ci

maddəsinin 2-ci paraqrafı, Uşaq Hüquqlarının Müdafiəsi haqqında Konvensiyanın 1, 4, 5-ci maddələri, 13-cü maddənin 1-ci paraqrafı, 14-cü maddənin 1 və 2-ci paraqrafında söylənilən bütün müddəalara görə, valideynlərin razılığı olmadan uşaqlara dini doktrinanın tədris edilməsi yolverilməz sayılır. Sənədlərdə bu müqavilələrə üzv olan hökumətlərə müraciət edilir ki, vətəndaşların bu hüquqlarının qorunmasına yardım etsinlər.

Əslində biz burada çıxılmaz vəziyyətə düşmüşük. Yeganə məqsədimiz daha az itkiyə yol verməklə vəziyyətdən çıxmaqdır.

Xanım nazir, bütün bu qeydlərimi nəzərə alaraq icazə verin bu sorğu ilə bağlı növbəti taktikanı diqqətinizə çatdırım.

X Pravoslav kilsəsi doktrinasının məktəblərdə mütləq tədrisi haqqında konstitusiya müddəasına baxmayaraq, Siz 21-ə RX-nin bu tələbinin yerinə yetirilməsi barədə təhsil nazirinə müvafiq göstəriş verməlisiniz. Bu halda hansı nəticələr meydana çıxa bilər?

a) Təhsil naziri 21-ə RX-nin bu tələbini yerinə yetirə bilər. Belə olsa, bir elə də hay-küy qopmayacaq. Belə ki, 21-ə RX üzvlərinin sayı çox azdır, həm də ki, 1993-cü ildə konstitusiya qəbul olunandan indiyədək cəmiyyət bu cür hallara qarşı barışmazlığını xeyli azaldıb.

b) Təhsil naziri Sizin məsləhətinizə məhəl qoymayıb 21-ə RX-nin bu xahişini yerinə yetirməyə bilər. Belə olsa, onların etirazları, həm də dünya hüquq müdafiə hərəkatı iştirakçılarının etirazı ölkənin imicinə böyük zərbə vuracaq. ən əsası isə budur ki, həmin etirazlar Sizə və mənə qarşı yox, təhsil nazirinə qarşı yönələcək.

v) Təhsil naziri 21-ə RX-nin tələbini yerinə yetirə bilər və bu vaxt mürtəce müxalifət hay-küy sala, belə olduqda bu iş məhkəməyədək çatdırıla bilər. Bu faktın Ali Məhkəmədə müzakirə etdirilməsi də mümkündür. Bütün bu proses 2-3 il çəkə və bu müddətdə çox şey dəyişə bilər. cəmiyyət insan haqları və milli maraqların toqquşması ilə bağlı müzakirələrə cəlb olunar. Belə olsa, konstitusiyamızdakı qeyri-mükəmməllik çoxlarına aydın olacaq. Onda növbəti dəfə parlament seçkisində qələbə çalsaq, konstitusiyamızda düzəlişlər edə biləcəyik. Bizim imzaladığımız insan hüquqları haqda beynəlxalq paktların böyük əksəriyyəti də elə bunu tələb edir.

3. - 21-ə RX liderinə öz dini təriqətləri üzrə qrup üzvlərinin uşaqlarına dərs demək icazəsi verilsin?

- Təbii ki, icazə verilsin!

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Təhsil naziri 21-ə RX üzvlərinin bu tələbini yerinə yetirməli olacaq. Belə ki, həm bizim konstitusiyamız, həm də beynəlxalq hüquq normaları vətəndaşların istənilən dini və əxlaqi doktrinaları öyrənmək hüququnu təsbit edir.

Bax: X Respublikasının konstitusiyası - "Başqa dini birliklərə üzv olan valideynlər öz övladları üçün alternativ tədris təşkil edə bilərlər". Bax: İHD-nin 18-ci maddəsi, VHSHHBP-nin 18-ci maddəsinin 1, 4-cü paraqrafı, 19-cu maddəsinin 1-ci paraqrafı və dini prinsip üzrə bütün dözülməzlik və ayrı-seçkilik formalarının aradan qaldırılması deklarasiyasının 1-ci maddəsinin 1-ci paraqrafı, 2-ci maddəsinin 2-ci paraqrafı.

Hökumət 21-ə RX-nin bu tələbini yerinə yetirməkdən imtina edə bilər. Bu, yalnız o halda mümkündür ki, 21-ə RX doktrinasının din olmaması haqqında və 21-ə RX üzvlərinin təbliğ etdiyi əxlaqın ümumi qəbul olunmuş əxlaq normalarına zidd olması, yaxud milli təhlükəsizliyimizə qarşı yönəlməsi haqqında məhkəmə qərarı verilmiş olsun.

Amma mən təhsil nazirimizə məsləhət görməzdim ki, 21-ə RX ilə bağlı işi məhkəməyə çatdırsın. Çünki hətta məhkəmə hökumətin xeyrinə qərar versə belə (əslində mən buna qətiyyən şübhə etmirəm), bu qərar demokratik dünya birliyinin mənfi reaksiyasına səbəb olacaq və ölkədə vətəndaş cəmiyyətinin yaranmasına, inam və etibar ovqatının bərqərar olmasına xeyli ziyan vuracaq.

4. - 5-ci sinifdən yuxarı olan qız uşaqlarını məcburi orta təhsil prosesindən azad etmək olarmı?

- Olmaz!

Təbii ki, hökumət 21-ə RX qrupu üzvlərinin bu xahişini yerinə yetirməməlidir. Həm bizim konstitusiyamız, həmçinin də beynəlxalq hüquq ölkənin hər bir vətəndaşının inkişafı üçün zəruri olan informasiyanı qəbul etmək və əsas insan haqlarından biri olan orta təhsil almaq hüququnun təmin edilməsini nəzərdə tutur.

Bax: İHD-nin 26-cı maddəsi, 13-cü maddəsinin 13-cü paraqrafı, Uşaq Hüquqları haqqında Konvensiyanın 28-ci maddəsinin 1, a, d, e paraqrafları, 30-cu maddəsi.

Hazir xanım, beləliklə, mən belə hesab edirəm ki, sorğunu bu cür cavablamaqla biz həm milli maraqlarımızı, həm də öz xeyrimizi nəzərə ala bilərik. Zənnimcə, 21-ə RX-dən olan radikallar da nəhayətsiz güzəştlərimizə görə bizə minnətdar olacaqlar. ən nəhayət, hər hansı bir azlıq bizim həyat tərzimizi müəyyənləşdirə bilməz ki.

HİKMƏT HACIZADƏNİN KİTABXANASINDAN Arxiv 2025

P.S. gecənin bir vaxtı bu memorandumu hazırlayıb qurtardıqdan sonra bəzi məsələlər haqda düşünməyə başladım: radikalizmin mahiyyəti nədir, hər birimizin daxilindəki radikalizmin məğzi nədən ibarətdir, nəhayət, radikallar da insan haqlarından faydalana bilərlər, ya yox? Daşınıb düşündükcə, PEW FELLOW-96-nın başqa bir üzvünün (onunla da Kolumbiya Universitetində tanış olmuşuq) - Hikmət Hacızadənin artıq hamımıza məlum olan fikirlərini bir daha xatırlayırdım: Elə bir vaxt gələ bilər ki, ... bizlərdən hər birimiz hər hansı azlıqda təmsil oluna bilərik. Belə bir məqam üçün özümüzü də, başqalarını da hazırlamalıyıq".

Mətnin Sonu

* * *

# 2. İslam Dünyası Demokratik İslahatlar Ərəfəsində (1997)

HİKMƏT HACIZADƏ

Speech on the Conference
“Religious Organizations and Human Rights Movement”,
SIPA, Columbia University, NY, USA, Budapest, March 24-25, 1997)

Arxiv 2025

*İnsanlar islamın yüksək dəyərlərini ənənəyə baş əyməklə, yaxud qorxuya görə yox, şüurlu şəkildə — şəxsi seçimin nəticəsi kimi qəbul etməlidirlər.*

*İslamda demokratiya*

...İslam dedikdə biz bu gün nəyi başa düşürük? İslam orta əsrlər dahilərinin mədəniyyəti, yoxsa əfqan taliblərinin cahilliyidir? İslam — müstəbid dövlətdə zülm və korrupsiya, yoxsa müstəqillik və ləyaqət uğrunda mübarizəyə ruhlandıran bir idealdır?

İslam ölkələrindəki çoxsaylı təriqətlərə və üsul-idarə formalarına baxmayaraq, bütün müsəlmanlar qəbul edirlər ki, dünyada ancaq bir islam var və onun qaynaqları Quran və sünnədədir (Məhəmməd peyğəmbərin kəlamları və gördüyü işlər). İslam qaynaqlarını öyrənərkən aşkar etdim ki, burada seçmək azadlığı, bərabərlik, insan ləyaqəti, dini azadlıq, milli fərqlərlə hesablaşma, xalq suverenliyi, ictimai saziş, qanunun aliliyi, sosial dövlət və insanın fəal həyatı mövqeyi haqqında külli miqdarda müddəalar var.

*Qurani-Kərimdən bəzi sitatlara nəzər salaq:*

**İnsanlar və millətlər arasında bərabərlik.** *"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq, sonra sizi xalqlara və qəbilələrə ayırdıq ki, bir-birinizi tanıyasınız" (49-cu surə: 13-cü ayə).*

(Quranın bu ayəsini BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin birinci maddəsi ilə müqayisə etmək maraqlı olardı: *"Bütün insanlar öz hüquqları etibarilə azad və bərabər doğulurlar. Onlara ağıl və vicdan bəxş edilmişdir və onlar bir-biri ilə qardaşlıq münasibətində olmalıdırlar"*).

**Xalq hakimiyyəti.** Allahın yerdəki müavini hökmdar yox, dini nüfuz sahibləri yox, hətta peyğəmbər də yox, xalqdır! Yalnız xalq öz müqəddəratını həll edə bilər: *"Mən yer üzündə müavinimi (insanı) yerləşdirəcəyəm" (2:30). "Siz insanlar üçün yaradılan ən gözəl ümmətdiniz. Düzgünlüyü buyurardınız, adamları fənalıqdan qoruyardınız" (3:110).* Yəni yer üzündə öz həyatlarını idarə etmək və daim abadlaşdırmaq məhz insanların vəzifəsidir.*"O kəslər ...işlərini öz aralarında məsləhət-məşvərətlə görərlər..." (42:38); "Buna görə öyüd-nəsihət ver. Sən ancaq öyüd verənsən! Onların üzərində hakim deyilsən!" (88:21-22).*

Arxiv
2025
KİTABXANASINDAN

**Vicdan azadlığı.** *"Dində məcburiyyət yoxdur" (2:256). "İnsanları inanmağa sənmi məcbur edəcəksən?!" (10:99).*

**Ümumun razılığı prinsipi.** Peyğəmbər şəxsən özü qərar qəbul etməməlidir. O, ümumun razılığına uyğun iş görməlidir: *"... İşlərini məşvərətlə həll eləyirlər" (42:38), "...Onlarla məsləhətləş..." (3:159), "Andırsana bunları onlara, Sənin borcun onları inandırmaqdır. Sən onlara hökm eləyən deyilsən" (88:21,22).*

**Seçmək azadlığı.** İslama görə, insan seçmək hüququna malikdir. İnsanın Allah qanununu qəbul etməməyə haqqı var, bu halda o özü Allah qarşısında cavab verməli olacaq: *"De ki, Rəbbinizin dərgahından gəlmiş haqq. İnanmaq istəyən inansın, istəməyən dansın onu"* (18:29).

**Vicdan azadlığı.** *"Dində məcburiyyət yoxdur"* (2:256). *"Sənmi zor işlədirsən insanları [imana] gətirmək üçün?" (10:99). "...Heç məcbur edərik ki, istəməyə-istəməyə bunları qəbul edəsiniz?" (11:28).*

**Şəxsi təhlükəsizlik.** *"Özgənin evinə nəbadə icazəsiz, sahibinə salamsız girəsiniz" (24:27).*

**Fəal həyat mövqeyi.** *"... Allah istəsəydi əgər, onlardan intiqamı özü alardı. Ancaq sizləri bir-birinizlə imtahana çəkmək istəyər O" (47:4).*

**Ailə.** *"[Ailədə] kimin gücü nəyə çatırsa onu öz boynuna götürsün"... "[Ailədə kişi ilə arvad] işlərini məşvərətlə və ümumi razılıqla [etməlidirlər]" (2:233).*

**Sosial təminat.** *"Və onların var-dövlətində əl açanın və ehtiyacı olanın payı da var idi" (51:19)*

**İslamın əsas tələbi.** *"Üzünüzü şərqə, ya qərbə çevirməyiniz hələ yaxşılıq demək deyil. Yaxşı o kəsdir ki... Allah sevgisiylə yaxınlara, yetimlərə, yoxsullara, yolçulara, dilənçilərə, boyunduruq altında olanlara mal paylamış... əhdində vəfalı olmuş, çətində-darda və savaş zamanında səbr göstərmişdir..." (2:177)*

***Məhəmməd peyğəmbər***

İndi də islamın növbəti qaynağına — sünnəyə baxaq. Peyğəmbərəqədərki və onun fəaliyyətindən sonrakı ərəb siyasi tarixinə nəzər salsaq, Məhəmməd peyğəmbər, sözsüz ki, dövrünün ən görkəmli mütəfəkkiri və siyasi xadimi sayılmalıdır.

Çağdaş demokratlar üçün belə bir fikir xüsusən maraqlıdır ki, bacarıqlı bir tacir olan Məhəmməd orta əsrlərin elə nadir mütəfəkkirlərindəndir ki, liberalizm prinsiplərindən olan seçmək azadlığı, şəxsin təhlükəsizliyi, mülkiyyət və zora müqavimət göstərmək hüququnu sonadak başa düşüb, qəbul edib, daim həyata keçirib.

Hədislərdə məlumat verildiyi kimi, Məhəmməd peyğəmbər buyurmuşdu: *"Heç kəs günah sayılan göstərişlərə tabe olmamalıdır"*. Bu kəlam yalnız dindarın tabe olmamaq hüququnu açıqlamır, o həm də göstərir ki, Allah buyruğuna görə, cinayətkar əmrə tabe olmamaq dindarın borcudur. Qeyd edim ki, məzmunca buna yaxın bir müddəa bu gün yalnız Almaniya Konstitusiyasında var.

Satış üçün nəzərdə tutulmayıb

*“Heç bir ərəb qeyri-ərəbə nisbətən hansısa üstünlüyə malik deyil. Eləcə də qeyri-ərəb zənciyə nisbətən, zənci ağ adama nisbətən hansısa üstünlüyə malik deyil”.*

*“İcmamdakı rəy müxtəlifliyi Rəbbimizin rəhminin nişanəsidir”.*

*“Əgər adamların [şəxsi] sirlərini açmağa cəhd göstərsəniz onları məhv edərsiniz, yaxud, ən azı, onları uçurumun kənarına atmış olarsınız”.*

*“Biz [müsəlmanlar] başqa xalqların bizdən qabaq keçdiyi yolları addım-addım keçməliyik”.*

Məlumdur ki, Mədinə əhalisinin əksəriyyətindən ibarət tərəfdaşlarının razılığını əldə edən Məhəmməd peyğəmbər öz üsul-idarəsinə başlamazdan öncə hökmdarla şəhər əhalisi, o cümlədən milli və dini azlıqlar arasında qarşılıqlı təəhhüdlər haqqında ictimai saziş imzaladı. Həmin “Mədinə müqaviləsi” düz min il sonra Lokk və Russonun təsvir etdiyi kimi elmi abstraksiya yox, gerçək fəaliyyət göstərən “ictimai müqavilə” idi.

Nəhayət, peyğəmbərin bir kəlamını yada salmaq istərdim. Bu kəlam öz hüquqlarının müdafiəsinə qalxan adamlar üçün çox vacibdir: *“Kim şərlə üz-üzə gəlsə silahla ona qarşı vuruşsun, gücü çatmırsa qoy şərə qarşı fikrini açıq söyləsin, ona da gücü çatmırsa onda bu şəri öz ürəyində bağlasın. Amma bu, iman gətirməyin ən zəif təzahürü olacağ”.*

Demokratiyanın kökü bu deyilmi? Əgər biz müsəlman aləmində despotizmi, yaxud insanın sosial passivliyini, cəhalətpərəstliyi, yaxud korrupsiyanı müşahidə ediriksə də, bütün bunların islamın qaynaqları ilə heç bir əlaqəsi yoxdur. Elə ABŞ Konstitusiyasında da seqreqasiya haqqında heç bir söz deyilmir, halbuki o yalnız Amerika inqilabından 200 il sonra hüquqi cəhətdən ləğv edildi.

Bu gün müsəlman aləminin mütərəqqi yönlü dini liderləri islam qaynaqlarındaki demokratik müddəalardan əməli şəkildə faydalanırlar. Buna “Əl-Xoi Fondu” beynəlxalq islam xeyriyyə cəmiyyətinin London ofisində qonaqkən şahid oldum.

1997-ci ilin martında Britaniya ictimaiyyəti çox mühüm bir elmi kəşfi — “kloninq”i (canlı orqanizmin dəqiq surətisnin törənməsi) geniş müzakirə edirdi. Müzakirə iştirakçılarının çoxu mənəvi və dini baxımdan bu qeyri-təbii çoxalma üsuluna qarşı çıxırdı. Proqramlarını dünyanın hər yerinə yayımlayan *SKY TV* şirkəti verilişlərin birində Britaniya alimləri, siyasətçiləri, ictimai və din xadimləri arasında məsələyə münasibəti aydınlaşdırmaq üçün rəy sorğusu keçirdi. Verilişdə Britaniyada sayı milyona çatan müsəlman icmasının liderlərinə də (verilişdə “Əl-Xoi Fondu”nun bir alimi də iştirak edirdi) müraciət edildi. Öz aralarında, həm də Misir və İrandakı mütərəqqi fikirli həmkarları ilə məşvərət aparan

Satış üçün nəzərdə tutulmayıb

Britaniyanın islam üləmaları bu nəticəyə gəldilər ki, islam kloninqi yasaq saymır, əksinə, Allahın yerdəki nümayəndələri olan insanları daim Allahın yaratdığı mühiti və sosial şəraiti yaxşılaşdırmağa səsləyir (3:110). Odur ki, kloninqə yol vermək olar, yalnız bir şərtlə ki, bu zaman mənəvi məqsədlər rəhbər tutulsun.

*Uğursuzluqların başlıca səbəbi*

Demokratiyanın uğursuzluqlarını islam mənbələri ilə əlaqələndirmək qeyri-mümkündür — gördüyünüz kimi, islam mahiyyətcə antidemokratik deyil! Demokratiyanın məğlubiyyətinin əsas səbəbi şüurumuzdakı avtoritarizm və cəhalətdir. Odur ki, bütün cəhdlərimiz şüurumuzu qaranlığın əsarətindən çıxarmağa yönəldilməlidir.

Nə xeyirxah hökmdar, nə də yaxşı konstitusiya, yaxud müdrik müqəddəs kitab özü-özlüyündə demokratiyanın uğuruna gətirib çıxarmır. Demokratiya yalnız o zaman mümkündür ki, öz hüquqları uğrunda rasional və inadkar mübarizə aparan insanlar hakimiyyətə nəzarəti həyata keçirə bilsinlər.

Fikrimcə, həm islam, həm Latın Amerikası, həm də kommunist rejimli ölkələrdə demokratiyanın qələbə çalmamasının köklü, psixoloji səbəbləri eynidir. Keçmiş sosialist bloku ölkələrindən olan adamlara bu səbəblər tanışdır.

Məsuliyyətdən, tənhalıqdan və "azadlıqdan qaçıb" (Erix Fromm) məsuliyyətimizi bölüşən kollektiv mühitində, adi və aydın qərarlar aləmində gizlənmək, yaxud müqəddəratımızı həll edəsi "böyük qardaş"ın himayəsinə keçmək kimi məsələlər bizə yaxşı tanışdır.

Azad olmayan, antidemokratik şüurun əsas əlamətləri bunlardır: ali məqsədlər naminə insan həyatına qarşı etinasızlıq; kollektiv maraqların insan haqlarından üstünlüyü; problemə baş qoşmaqdan çəkinmək; inkişafa imkan verməyən daimi harmoniya və konsensus axtarışı, ümumi şübhəlilik; münaqişəli şüur; həm də eyni zamanda münaqişələri dinc yolla həll etmək bacarığı olmadığından hər hansı münaqişədən qaçmaq... İstənilən avtoritar cəmiyyətdə bu əlamətlər eynidir.

Nyu-Yorkun Kolumbiya Universitetində "İnsan haqları və dini azadlıqlar" proqramında iştirak edərkən müşahidə etdim ki, böyük əksəriyyəti qeyri-müsəlman olan şərqi avropalılardan heç kəsin (elə mənim də) cürəti çatmadı ki, təşkilatçıların nəzərdə tutduğu kimi, proqram mühazirəçilərini və bütövlükdə proqramı düzgün qiymətləndirə bilsin. Biz həqiqəti söyləməyə öyrəşməmişdik. Bu isə dinin yox, kommunist avtoritarizminin nəticəsi idi. Kolumbiyanın amerikalı tələbələri də bizimlə birgə o mühazirələri dinləyirdilər, ancaq onlar müəllimlərinin çıxışlarına çox asanlıqla qiymətlər yazdılar.

Satış üçün nəzərdə tutulmayıb

Göründüyü kimi, dini avtoritarizm və ekstremizm cahilliyin demokratiyaya meydan oxuduğu nə birinci, nə də sonuncu hadisədir.

*İslahat cəhdləri*

Müsəlman Şərqi xristian Qərbinə nisbətən gerilədikcə islam cəmiyyətini modernləşdirmək və demokratikləşdirmək cəhdlərinin sayı artır. İslam islahatçı mütəfəkkiri əl-Əfqaninin xidmətlərindən söz açmaq yerinə düşərdi. Əl-Əfqani 19-cu əsrin ortalarında islam irsini yenidən qiymətləndirmək və islam təcrübəsini yaxşılaşdırmaq konsepsiyasını irəli sürdü. Əl-Əfqani deyirdi ki, Qərb öz təcrübəsində çağdaş Şərqə nisbətən daha çox əsl islam normalarına riayət edir.

Müsəlman aləmində dünyəvi və ateist yönlü çıxışlar da fəallaşmağa başladı. Osmanlı imperiyasında avropapərəst “Tənzimat” islahatı keçirildi. 19-cu əsrin ortalarında Azərbaycanda M.F.Axundzadə maarifçilik və liberalizm ideyalarını təbliğ etməyə başladı. 20-ci əsrin əvvəllərində Krım tatarı olan İsmayıl bəy Qaspıralı müsəlman ölkələri üçün yeni dünyəvi təhsil sistemi layihəsi hazırlayıb həyata keçirdi.

İslam keçmiş SSRİ respublikalarında əslində qadağan olunmuşdu. Türkiyədə isə dövlətin ciddi nəzarəti altında idi. Bu ölkələrin hamısı orta əsrlər həyat tərzindən yaxa qurtarmaq işində uğur qazanmışdı. Elə fikir yaranırdı ki, islam ölkəsini modernləşdirmək probleminin həlli yolu tapılıb.

Amma islahatçıların islamı ictimai həyatdan kənarlaşdırmaq cəhdi baş tutmadı. Əksər müsəlmanlar üçün islam özünüdərkin ən mühüm tərkib hissəsi və çağdaş dünyanın hər hansı böhran və gərginliyindən universal sığınacaq kimi qalmaqda davam edirdi. İslam həm müstəmləkəçiliyə qarşı, həm də (müstəqillik əldə edildikdən sonra) ölkə daxilində despotizmə qarşı mübarizənin bayrağına çevrilməkdəydi. Nəhayət, həm Qərb kapitalizminə və fərdiyyətçiliyinə, həm də bolşevik ideologiyasına alternativ sayılan islam sosializmi və islam ölkələrindəki millətçilik “inkişafın üçüncü yolu” kimi nəzərdən keçirilirdi.

1955-ci ildə Bandunq konfransında iştirak edən 29 Asiya və Afrika ölkəsinin millətçi liderləri də elə “inkişafın üçüncü yolu”nu elan etdilər. Konfransdan sonra bu ölkələri Üçüncü dünya ölkələri adlandırmağa başladılar. Amma ənənəvi islam cəmiyyətində müasir dövlət qurmağın bu cəhdləri də məğlubiyyətə uğradı. Bunu başa düşmək də çətin deyil. Axı heç nəyi dəyişmədən hər şeyi dəyişdirmək mümkün də deyil. İslam ölkələrində yaşayan xalqlar ağır iqtisadi və siyasi böhranla qarşılaşan zaman inkişafın

Satış üçün nəzərdə tutulmayıb

dünyəvi millətçi konsepsiyasına olan ümidləri boşa çıxdı və bu xalqlar ictimai həyatın və dövlət quruculuğunun yeganə mötəbər forması kimi islama üz tutmağa başladılar. İran islam inqilabından sonra bütün müsəlman ölkələrində "islam dövləti" qurmaq zərurətindən danışmağa başladılar.

Bəs bu "islam dövləti" nə deməkdir? İslamın ənənəvi qəbulu zamanı bu ideya ən yaxşı halda çoxluğun heç nə ilə məhdudlaşdırılmayan hakimiyyəti sistemini yarada bilər, insan haqlarını qəbul etməyən demokratiya rejimi yaranar. Məsələn, bugünkü İran Konstitusiyasında çoxsaylı şəxsi və siyasi hüquqlar təsbit edilib. Bununla belə, həmin hüquqlar yalnız "islama zidd" olmayan hallarda tətbiq edilə bilər. İran Konstitusiyasının 24-cü maddəsi "islam prinsiplərinə zidd olan hallar istisna edilməklə" "özünüifadə azadlığını" təsbit edir.

İslam dövlətləri adlanan ölkələri kənardan seyr edərkən bu nəticəyə gəlirsən ki, bu dövlətlər xalqa nə mənəvi dinclik, nə azadlıq, nə də inkişaf verə bilib.

*İslahatçıların yeni nəsli*

İslam cəmiyyətindəki islahatlar uğursuzluğa uğradığından 70-ci illərdə islahatların vəzifəsi belə müəyyənləşdirildi: islamdan imtina etmək mümkün deyil, amma islam indiki avtoritar vəziyyətdə başa düşülsə, bütün inkişaf ümidləri boşa çıxacaq.

İnsan haqlarının üstünlüyünün dərk edilməsi, müxtəlifliyin inkişafın əsas hərəkətverici qüvvəsi kimi qəbul edilməsi islam islahatçılarının yeni nəslinin ideologiyasında başlıca dönüş məqamına çevrildi.

Son 20 ildə meydana çıxan və liberal fəlsəfənin əsaslarını heç də islamdan pis bilməyən bu mütəfəkkirlər islamda demokratiyanın köklərini axtarmağa başladılar. İslamı Quranda və sünnədə olduğu kimi bütünlüklə qəbul edən bu alimlər Quranın dəyişməz mətni ilə dəyişkən həyat şəraiti arasında uyğunlaşma aparmağa çalışırlar. Onlar belə hesab edirlər ki, dövlət dini, cəmiyyət isə plüralist olmalıdır.

İslam ənənəçiləri ilə fəal fikir yarışması aparan yeni islahatçılar nəsli deyir ki, Quranda və sünnədə hər hansı siyasi qurumun bərqərar edilməsi göstərilməyib. İslam qaynaqlarında Quran müddəalarının həyatda tətbiqi üsulu barədə də heç bir göstəriş yoxdur. Müsəlman icması konkret həyati məsələnin həlli üçün qanunvericilik aktı qəbul etmək məcburiyyətində qaldığı zaman adətən icma "ictihad" adlanan açıq müzakirələrdə bu qanunu Quran və sünnə müddəalarının köməyi ilə yaratmalı olurdu. Göründüyü kimi, islam dövlətinin quruluşu və islam qanunvericiliyi (şəriət) müqəddəs kitablardan yox,

Satış üçün nəzərdə tutulmayıb

icma üzvlərinin düşüncəsindən yaranıb. Müqəddəs kitab susmaqdadır. Allah qanunların de-yure yaradıcısıdır, icma üzvləri isə bu qanunları de-fakto tətbiq edənlərdir.

Aydın məsələdir ki, bu qanunların mütərəqqiliyi bütünlüklə ictimai şüurun inkişaf səviyyəsindən asılıdır. Elə avtoritarlar kimi, islahatçı demokratların yeni nəsli də ictihaddan öz məqsədlərinə görə istifadə etməyə çalışırlar.

Misirin ilahiyyat professoru Məhəmməd Xələfullah deyir: "Yeni mülahizə ictimai maraqlara daha çox uyğun gəldiyi halda mülahizəyə əsaslanan hər şey dəyişdirilə bilər".

İran professoru Əbdülkərim Süruş yazır: "Bizim dini qavrayışımız daim inkişafdadır. Müqəddəs kitab dəyişilməz qalır. Bizim bu kitabı dərk etməyimiz isə daim dəyişir. Hər kişi və qadın islamı öz anladığı kimi başa düşmək hüququna malikdir".

Qərbin akademik dairələrində ən nüfuzlu islam mütəfəkkirlərindən biri kimi tanınan professor Ə.Süruş İran islam inqilabının ən dərrakəli liderlərindən olub. Ə. Süruş inqilabdan sonrakı ilk illərdə yeni ali təhsil proqramının tərkibində fəal rol oynayıb. Amma çox keçmədi ki, hakimiyyəti ələ almış dini nüfuz sahibləri onun fikirlərini olduqca ziddiyyətli və hətta küfr elan etdilər. Bununla belə, ziyalılar və tələbələr arasında Süruşun böyük hörməti var. Səbəbi də aydındır. Süruş deyir: "İslam və demokratiya nəinki bir araya gələ bilər, onların birliyi həyati zərurətdir". "Əsl dindar olmaq üçün insan ilk növbədə azad olmalıdır". "Cəza hədəsi ilə qəbul edilən inam həqiqi inam ola bilməz. Dindar öz dinindən imtina etmək hüququna da malik olmalıdır. Demokratiyanın əsası da bundan ibarətdir". Qeyd edək ki, İranda dindən imtina ölüm hökmü ilə cəzalandırılır.

Süruşun fikrincə, inamı qoruyan və Quranı şərh edən dini liderlər nə dövlətdən, nə də dindarlardan maliyyə yardımı almalıdır. Onlar özləri işləyib pul qazanmalıdır. Yalnız bu halda dini liderlər və bütövlikdə islam sosial sifarişlərdən tamamilə azad olacaq, müqəddəs kitabı şərh edərkən müstəqilliklərini qoruyub saxlaya biləcəklər.

Başqa bir islam islahatçısı Əbdi Hilali-Əksəri yazır: "Süruş müsəlmanları əsl, həqiqi müsəlman etmək istəyir. İstəyir ki, insanlar islamın yüksək dəyərlərini ənənəyə baş əyməklə, yaxud qorxuya görə yox, şüurlu şəkildə, şəxsi seçimin nəticəsi kimi qəbul etsinlər".

Bu gün yalnız müsəlman mütəfəkkirləri yox, islam ölkələrindəki siyasətçilər də islamla demokratiyanı uyğunlaşdırmağa cəhd edirlər. Tunisin siyasi xadimi Rəşid Qannuçinin adını çəkmək yerinə düşərdi. Qannuçi 1981-ci ildə islam kontekstində demokratik proqramın, İslam Dirçəliş Partiyasının əsasını qoymuşdu. Qannuçi ictimai həyatın bütün

Satış üçün nəzərdə tutulmayıb

sahələrində, qadınların hüquq bərabərliyi də daxil olmaqla, müasir və demokratik cəmiyyətə xas bütün atributları saxlayan islam sisteminin tərəfdarıdır. Qannuçi yazır: "İslamın rolu mənəvi dəyərlər sistemini müəyyən etməkdən ibarətdir. İslam mənbələrində hansısa konkret fəaliyyət proqramı yoxdur. Quran yalnız əsas prinsipləri müəyyənləşdirib. Problemlərimizin həlli üçün fəaliyyət proqramı hazırlamaq isə bizim vəzifəmizdir".

Yəməndə islamçı alim İbrahim əl-Vəzir də çoxsaylı tərəfdaşları olan müxalifətçi partiya üçün islam kontekstində buna bənzər bir demokratik proqram hazırlayıb.

Dövlət quruculuğu, şəxsi və siyasi azadlıqlar, ənənələr, məişət və mədəniyyət — islamçı islahatçıların yeni nəsli bütün bunlara tənqidi baxımdan yanaşır. Misir alimi Fəthi Osman yazır: "Biz müsəlmanların açıq münasibət bildirəcəyimiz əsas məsələlər bunlardır — qadınlar və kişilər arasındakı qarşılıqlı münasibətlər, bir də müsəlmanlarla qeyri-müsəlmanlar arasındakı qarşılıqlı münasibətlər". "Nə Quranda, nə də sünnədə qəti şəkildə göstərilib ki, qadın yalnız ailə həyatı üçün yaranıb və onun əsas yeri dörd divar arasında olmalıdır".

Bir məsələni də qeyd edək ki, hədislərdə yazıldığına görə, Məhəmməd peyğəmbər dualardan sonra evə qayıdan zaman ev işlərində köməklik edirmiş.

*"Azadlıq nəsimi"*

İslam islahatçılarının fəaliyyəti hakimiyyətin, ruhani idarələrin və əhalinin mühafizəkar hissəsinin böyük müqaviməti ilə qarşılaşır. Bu səbəbdən bəzi islahatçılar öz ölkələrini tərk edib Qərb ölkələrində yaşamağa məcbur olurlar. Buna baxmayaraq, islamda islahat ideyaları geniş yayılmaqdadır. Əsas məsələ odur ki, İraqın müsəlman dissidenti S.M.Bəhrül-Ülumun yazdığı kimi, "millət azadlıq nəsimini hiss edib". Kütləvi kommunikasiya və adamların sərbəst yerdəyişməsi əsrində demokratik ideyaların yayılmasının qarşısını almaq mümkün deyil. Bundan başqa, azad cəmiyyətlərin uğurları açıq-aşkar hiss olunduğu zaman çox az adam demokratiya ideyasına qarşı açıq çıxış edə bilər.

Səudiyyə Ərəbistanının kralı Fəhd "Əs-Siasa" jurnalına verdiyi müsahibədə (mart 1992-ci il) islam və demokratiya haqqında sualı belə cavablandırıb: "Dünyada yayılmış demokratiya modeli bizim bölgəyə uyğun gəlmir. Bizdə özünü kifayətləndirən bir sistem, mükəmməl bir din olan islam var. Sərbəst seçkilər müsəlman dini sferasına aid deyil. Sərbəst seçki tərəfdarları bizim Səudiyyə Ərəbistanı krallığında yaşaya bilməzlər".

Satış üçün nəzərdə tutulmayıb

Ancaq başqa bir müsəlman kralı — Oman sultanı Kabus Hollandiya qəzetinə verdiyi müsahibədə (fevral 1993-cü il) buna tamamilə zidd bir fikir söyləyib: "İslam mahiyyətcə demokratikdir. Biz imkanların bərabərliyinə inanırıq. Biz inanırıq ki, həm dünyəvi, həm də dini rəhbərlərimiz Allah qarşısında da, xalq qarşısında da məsuliyyət daşıyırlar. Biz inanırıq ki, vətəndaşların öz fikirlərini sərbəst ifadə etmək hüququ olmalıdır. İslamın əsl mahiyyəti də elə bundan ibarətdir".

Bəli, bu, feodal bir kralın bəyanatı idi. Həqiqətən, "heç kəs tənha ada deyil" (ələlxüsus 3-cü minilliyin ərəfəsində).

Müsəlman aləmini bürüyən böhrandan çıxış yollarının axtarılması və islamla demokratiya haqqında müzakirələr — bu gün bütün islam cəmiyyətlərini, xüsusən xarici ölkələrdəki müsəlman icmalarını narahat edən əsas məsələlər bunlardır. Britaniyaya mühacirət etmiş müsəlmanlarla söhbətlər zamanı islam ölkələrinin inkişaf yolları haqqında ən ziddiyyətli fikirlərlə tanış oldum. Bu mövzu hər kəsi maraqlandırırdı. "Ənənələrimizdən imtina etsək, ərəbliyimiz qalmayacaq", "biz orta əsrlər islamından xilas olmalıyıq", "nə üçün biz müasir yəhudilər kimi olmayaq? Onlar etiqadlarını qoruyurlar, amma müasir yaşayırlar".

Londonda islamın daxilində gedən daha bir maraqlı hərəkatın şahidi oldum: islamın müxtəlif cərəyan və təriqətləri arasında dialoq yaranmaqdadır. Londonda şiələr və sünnilər eyni məsciddə ibadət edə bilirlər, halbuki əvvəllər bu, əsl problem idi. İslamın müxtəlif cərəyanlarının liderləri arasında barışıq haqqında, həm də ümumbəşəri dəyərlərə əsaslanan ümumislam mövqeyinin yaradılması haqqında müntəzəm dialoqlar aparılmağa başlayıb.

Get-gedə daha çox müsəlman həyat şəraitini zamanın tələbinə uyğunlaşdırmaq qərarına gəlir. Vəï beynəlxalq birlik islamı qaralamaq əvəzinə, bu mütərəqqi islahatçı hərəkatı dəstəkləməlidir. Eyni zamanda, bəzi islam rejimlərində orta əsr cəhalətpərəstliyini yaymaq cəhdlərinə qarşı hamı öz sözünü söyləməlidir. "Biz imkan verə bilmərik ki, mədəni fərqlər repressiyaların son dayağına çevrilsin" (U.Kristoffer, iyun 1993-cü il). Demokratik ölkələr qarşısında əsasən bu iki "islam vəzifəsi" qalmaqdadır.

Şübhəsiz, müsəlman ölkələrinin dirçəlməsində əsas rol müsəlmanların öz üzərinə düşür. İslam ölkələrindəki alimlər və ziyalılar bir şeyi anlayıb qəbul etməlidirlər ki, insan vasitə yox, məqsəddir, insan haqları ümumbəşəridir və "başqaları" da bizim kimi insandırlar.

Ancaq mənə belə gəlir ki, insan haqlarının üstün olduğunu qəbul etmək ölkəni dirçəltmək üçün yetərli deyil. Məsələn, bizim əməyə münasibətimiz kökündən dəyişməlidir. Müsəlmanlar, o cümlədən Azərbaycan müsəlmanları da nəhayət anlamalıdırlar ki, şan-şöhrət

Satış üçün nəzərdə tutulmayıb

insanın şəxsi unikallığından irəli gələn saxta duyğu deyil, öz əlləri ilə istehsal etdiyi məhsulun bəhrəsidir.

Müsəlmanlar başa düşməlidirlər ki, əxlaq ailə əxlaqı məfhumundan çox-çox geniş bir məfhumdur. Və əgər hakim prezidentə "yox" deyə bilirsə, bu, ən yüksək bir əxlaqın təzahürüdür.

Öz çətinliklərinin əsas səbəbini "Qərbin hiylələri"ndə görən müsəlmanlara isə sözüm budur: "Təsəvvür et ki, qardaş, dünyada Qərb heç yoxdur. Sonra bir özünə bax, bir ətrafına... Doğrudanmı biz öz-özlüyümüzdə bu dərəcədə kamilik?".

Biz çox çətin, amma şərəfli bir vəzifəni yerinə yetirməliyik. Bu işi bizim əvəzimizə görən olmayacaq. Biz zehni cəhətdən daha səmimi və daha cəsarətli olmalıyıq. Allah öz-özünə kömək edənə kömək edir.

Mətnin Sonu

* * *

# 3. MÜSTƏQİL AZƏRBAYCANDA DİNİ ETİQAD AZADLIĞI
## Dini çoxluğun və dini azlıqların problemləri
## (1998)

Hikmət HACIZADƏ
(FAR CENTRE)

Hikmet Hadjy-zadeh
VICE PRESIDENT
FAR CENTRE

(Report To The Conference "The Protection of Religious Minorities. Religious Freedom and Human Rights in Post-Communist Europe", CSHR, SIPA, Columbia University, New York, USA, Research Center of Jewish History & Culture, Krakov University, Poland. Krakow, March 14-18, 1998)

Satış üçün nəzərdə tutulmayıb

DİNİ AZLIQLARIN PROBLEMLƏRİ

1996-ci illdə Nyu-Yorkda Kolumbiya Universitetinin "Din və İnsan haqları" proqramı işinə başlayarkən proqramın təşkilatçılar məndən soruşdular: "Dini azlıqların problemləri ilə bağlı hansı kursu seçmək istəyirsiniz?".

- "Heç bilmirəm, bizdə belə problem hələki yoxdur. Bizdə ancaq müsəlman çoxluğu ilə bağlı bəzi problemlər var, - dedim. Az sonra isə səhv etdiyim aydın oldu.

Hələ Nyu-Yorkda olarkən Azərbaycandan dini azlıqların problemlərilə haqqında xəbərlər almaqa başladım. Məlum oldu ki, ölkəmizdə də yeni "peyğəmbərlər" peyda olubmuş, dini fəallar onları lap ölümlə də hədələyirmişlər. Öyrəndim ki, Azərbaycana xaricdən indiyədək tanıyıb bilmədiyimiz sektalar, təriqət və məzhəblərin təbliğçiləri (missionerlər) gəlirmişlər. Cəmiyyət onları gözümçıxdıya salır, dövlət onların fəaliyyətlərinə məhdudiyyətlər qoyurmuş.

1997 sentyabrında isə Kolumbiyada mühazirələrdə eşitdiyim bir hadisəyə oxşar hal Bakının Binəqədi rayonunda da baş veribmiş. 13 yaşlı bir qız məktəbə başı örtülü gəlib demişdir ki tətil vaxtı Allah tapındığından geyimində xüsusi dəyişiklik olmalıdır. Müdiriyyət isə qızı dərslərə buraxmayaraq: "Dövlət məktəbində uşaqlar müvafiq forma geyməlidirlər", - deyib. Qız isə örtüyünü açdırsalar özünü yandıracağına and içib. Direktor isə bildirib ki, qız istəyirsə xüsusi dini məktəbdə tədris ala bilər. Bu məsələ indiyədək həll olunmayıb... Doğrusu, bu problemin həllini mən də hələki təsəvvür etmirəm.

Yeri gəlmişkən, FREEDOM HOUSE-ın (dünyada demokratiyanın inkişafını öyrənən Amerika təşkilatı) illik hesabatına görə Azərbaycan azad olmayan ölkələr təsnifinə aid edilib. Ancaq altı illik müstəqillik dövründə cəmiyyətin dövlətdən qazandığı bu məhdud azadlıq belə həyat şəraitində misli görünməyən rəngarənglik yaradıb. İdeologiya, hərəkat, partiya, din, həyat tərzlərinin sayı xeyli dərəcədə artıb. Həyatdakı bu çaşdırıcı müxtəliflikdən narahat olan bəzi parlament üzvləri belə deyirdilər: 1991-ci il - "500 adda qəzet BİZİM nəyimizə gərəkdir?"; 1993-cü il - "50 siyasi partiya BİZƏ lazımdırmı?". 1996-cı ildə artıq deputatlar partiya və qəzetlərin yox: "Bu qədər dini təşkilat və yad sektaları BİZ neyləyirik?". Suallardakı "BİZ neyləyirik?" kimi ifadələr əhalinin əksəriyyəti kimi deputatların da cəmiyyət maraqlarını insanların həyatda mövqe seçmək hüququndan üstün tutmasına işarətdir... Müxtəlifliyin isə artıq qarşısını almaq mümkün deyil. Azadlıq öz işini görüb. Cəmiyyət çoxfikirlilik və dözümlülük şəraitində yaşamağa alışmalıdır...

Satış üçün nəzərdə tutulmayıb

Bəs ümumiyyətlə ölkədə vicdan azadlığı məsələsi nə yerdədir? Kommunist rejiminin süqutundan sonra din cəmiyyətimizdə önəmli bir yer tutdu. 1992-ci ildə parlament "Dini etiqad azadlığı" haqqında demokratik bir qanun qəbul etdi, onlarca yeni dini təşkilat qeydiyyatdan keçdi. Elə həmin il prezidentin fərmanı ilə dini etiqad ocaqları dindarlara qaytarıldı, dini təhsilə bütün azadlıqlar verildi. Dini mərasimlərdə rəsmi şəxslər görünməyə başladılar. Siyasətçilər dindarlarla dilxoşluq etməyə başladılar. Din amilindən istifadə edən bəzi İslam dövlətləri Azərbaycanda İslam rejiminin təbliğinə ətək-ətək pullar sərf etdilər. Amma dini intibah baş vermədi. Din mənəvi bir faktor kimi ölkəyə qayıda bilsə belə, görünür sovet ateizminin təsiri nəticəsində Azərbaycanda şəriət - islam qanunvericiliyini – çətin ki qüvvəyə minsin. Konstitusiyada da, əsas siyasi partiyaların proqramlarında din tamamilə dövlətdən ayrılıb.

Azərbaycanlıların böyük əksəriyyəti özünü müsəlman saysa da, İslam qayda-qanunlarına əməl edənlər bir elə də çox deyil. Azərbaycanın şəhər və kəndlərində başı çarşablı qadınlar Londonda və, əlbəttə, İstanbulda da çarşab taxanlardan çox-çox azdır. Artıq din yox, dini azlıqların problemi böyük müzakirə obyektinə çevrilib.

Bu gün cəmiyyət yalnız əhalinin etiqad etdiyi ənənəvi dinləri - İslamı, Pravoslavlığı və İudaizmi qəbul edə bilir. Yeni dini təşkilatları və xaricdən axın-axın gələn həm xristian, həm də müsəlman missionerlərinə gəlincə, cəmiyyət bu növ fəaliyyəti milli birliyə xələl, milli təhlükəsizliyə zərbə kimi qəbul edirdi. "Dini etiqad azadlığı" haqqında qanun hər tərəftən kəskin tənqidə tutulurdu.

1996-cı ildə parlament bu qanuna dəyişikliklər etdi. Xarici missionerlərin fəaliyyəti dayandırıldı, müstəqil dini icmalara isə tövsiyə edildi ki, ənənəvi dini təşkilat mərkəzlərində qeydiyyatdan keçsinlər. İqtidar və müxalifət qəzetləri İran, yaxud Əlcəzair variantından, eləcə də Qərbin mədəni imperializmindən ehtiyatlanaraq dini təşkilatları cəmiyyətə zidd fəaliyyətdə ittiham etdilər.

İnsanın qeyri-ənənəvi həyat tərzi, yaxud onun vicdan azadlığı cəmiyyətimizin demokratikliyini növbəti dəfə ciddi sınaq qarşısında qoydu. Vahid kommunist ideologiyası səhv fikir kimi ləğv edilsədə, çoxluq hələ də hamıya şamil edilən vahid həqiqətin mövcudluğuna inanır. "İslam İttifaqı" dini təşkilatın rəhbəəri Hacı Azər Ramizoğlu ötən ilin yazında "Azadlıq" qəzetinə verdiyi müsahibədə belə demişdi: "Üzümü həm iqtidara, həm müxalifətə tutub deyirəm: bizə düşman kimi baxmasınlar. Elə bilməyin ki, sizə bənzəməyən kəs sizə düşməndir".

Yeni müsəlman təşkilatlara yanaşma son dərəcədə ehtiyatlıdır. Yeni xristian təşkilatlarına münasibət isə düşmən münasibəti daşıyır. Parlamentdə prezidentin humanitar məsələlər üzrə müşavirinin (Fatma Abdullazadə) fəaliyyətini müzakirə edən bir deputat qardaşının

Satış üçün nəzərdə tutulmayıb

dədə-baba dinimizdən üz döndərib xristianlığı qəbul etməyinə görə xanım müşaviri etibarsızlıqda suçlandırdı.

Qəzetlərdə bəzi xristian missionerlərin uşaqlar üçün dini kitablar yaymaqları oxucular tərəfindən da tənqid olunur. Bu məsələdə hökumət də fəaliyyətsiz deyil. "Dini etiqad azadlığı" haqqında qanuna düzəlişində deyilir: "Dini ədəbiyyat çap olunarkən yaxud ölkəyə gətirilərkən mütləq Azərbaycan Nazirlər Kabineti yanında Dini İşlər Üzrə Komitənin razılığı alınmalıdır" (Maddə 23, paraqraf 3). İndi isə bu maddəni Azərbaycan tərəfindən imzalanmış BMT-nin Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt-ın 19 Maddəsinə nəzər salaq.

1. Hər bir insan şəxsi fikri olmaq hüququna malikdir.

2. Hər bir insanın öz fikrini sərbəst ifadə etmək hüququ var. Bu hüquqa dövlət sərhədlərindən asılı olmayaraq hər cür informasiya və ideyaları axtarmaq, almaq, şifahi, yazılı, mətbuat, yaxud bədii ifadə formaları vasitəsilə, yaxud özü seçdiyi başqa üsullarla yaymaq azadlığı daxildir.

3. Bu maddənin 2-ci bəndində göstərilən hüquqlardan istifadə olunması xüsusi vəzifələr qoyur və məsuliyyət tələb edir. Belə ki, bu, bir sıra məhdudiyyətlərlə bağlı ola bilər. Lakin onlar qanunla müəyyənləşdirilməli və aşağıdakıların təmin edilməsi üçün zəruri olmalıdır:

a) başqalarının hüquqlarına və adına hörmət edilməsi üçün;

b) dövlət təhlükəsizliyinin, ictimai asayişin, əhalinin sağlamlıq, yaxud mənəviyyatının qorunması üçün;

Bu ilin yanvarında Bakıda RF vətəndaşı, "Yahova şahidləri" sektasının nümayəndəsi Aleksandr Usenkonun məhkəmə prosesi oldu. Usenko sektanın Bakı icmasını qeydiyyatdan keçirmək üçün Ədliyyə Nazirliyinin nümayəndəsinə 2000 dollar məbləğində rüşvət təklif etməkdə ittiham olunurdu. Müttəhimin vəkili bildirdi ki, Ədliyyə Nazirliyi sektanı qeydiyyatdan keçirmək üçün düz 2 il Usenkodan rüşvət tələb edirmişlər. Şərti olaraq 3 illik cəzaya məhkum edilən Usenko məhkəmədən sonra azadlığa buraxıldı. Dövlət televiziyası isə rəsmi məlumatda bildirdi ki, "Yahova şahidləri" terrorçu təşkilat kimi Rusiyada da qadağan edilibmiş. Təbii ki, bu məlumat yalan idi.

Hökumətin yeni dini təşkilatlara münasibətini formalaşdıran amillərdən biri də əsas dini idarələrin (Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi, Moskva Patriarxiyasının Pravoslav kilsəsi və Bakı Sinaqoqu) məsləhətləridir. Adıgedən idarələr isə, əlbətdə, yeni zirəng rəqiblərinə heç simpatiya bəsləmirlər.

Satış üçün nəzərdə tutulmayıb

Bütün bunlara baxmayaraq yeni dini təşkilatlar fəaliyyətdədir. Bu fəaliyyət həm dövlətin, həm də cəmiyyətin təzyiqi altındadır. Fəaliyyətin tam dayandırılmamasına səbəb isə Azərbaycan üçün spesifik olan müəyyən cəhətlərdir. Əvvəla, əhali dini təriqət məsələlərinə çox laqeyddir. İkincisi, iqtidarın yeritdiyi xüsusi, yumşaq avtoritarizm siyasətinə görə, istənilən şəxs hakimiyyət üçün təhlükə yarana bilən məqama qədər istədiyini edə bilər. Üçüncüsü, demokratik birliyin (hüquq müdafiə təşkilatları, qəzet və siyasi partiyalardakı liberallar) dini təşkilatları müdafiyə edir, Qərb dövlətləri də vicdan azadlığına xüsusi diqqət yetirirlər. Ən nəhayət, yeni dini təşkilatların tənqidçisi onların fəaliyyətini müşahidə edərkən razılaşmaya bilmir ki, necə də olsa, onlar səfillərə və günaha batmışlara yardım əlini uzadırlar, özüdə bütün bunları umacaqsıs edirlər. Ana kilsələr isə (əsas dini idarələr) belə işlərlə məşğul ola bilmirlər.

## AZƏRBAYCAN İSLAM PARTİYASI
## - DİNİ ÇOXLUQ VƏ SİYASİ AZLIQ KİMİ

Söhbət dini çoxluğun, daha doğrusu, siyasi institutların vasitəsilə özlərini müəyyənləşdirməyə çalışan dindar fəalların problemlərindən gedəcək.

Dünyəvi siyasətçilərin "dindar adamlar siyasətdən uzaq dursalar, yaxşıdır" fikri əslində demokratik prinsiplərlə üst-üstə düşmür. BMT-nin İnsan Haqları Ümumi Deklarasiyasında da, Konstitusiyamızdada da dindarların siyasi partiya yaratmaq niyyəti qadağan edilmir. Burada bircə əngəl var: həm dünyəvi, həm də dindar siyasətçilər istisnasız hər bir kəsin siyasi prosesdə iştirak etmək hüququnu tanımalı və başqalarına öz həyat tərzlərini qəbul etdiriləməlidirlər. Təbii ki, heç kəs dövlətin müstəqilliyinə də zərbə vurmamalıdır...

İran islam inqilabı ideyalarının təsirilə yaradılan Azərbaycan İslam Partiyası (İP) 1992-ci ildə qeydiyyatdan keçmişdi. Elə İP-nin əsası qoyulduğu gündən də qəzetlər bu böyuk olmayan, amma fəal partiyanın İran hökumətilə əlaqələrindən yazmağa başladılar. İslam parityasının "qərbpərəst" və "türkpərəst" demokratlar hökümətilə dialoqı alınmadı. Lakin İP-nın indiki iqtidarla bəxti heç gətirmədi. 1996-cı ildə partiyanın liderləri və yerlərdəki fəalları İrana şpionajda ittiham edilərək uzunmüddətli həbs cəzasına məhkum olundular.

İP-nin fəaliyyətinə rəsmi qadağa qoyulmasa da, azadlıqda qalan partiya fəalları bütün dairələrdə rədd edilən bir qrupa çevrildilər. Bir il götür-qoy edib dəyərləri yenidən qiymətləndirən islamçılar 1997-ci ilin əvvəllərində İP-nı bərpa etmək istiqamətində fəaliyyətə başladılar. İslam Partiyasının yeni liderləri taktiki dəyişikliklər etmək fikrinə düşdülər.

Satış üçün nəzərdə tutulmayıb

Qərara alındı ki,

- Partiyanın adı dəyişdirilib Müsəlman Demokrat Partiyası adlandırılsın;

- yeni proqram qəbul edilsin və burada demokratiyaya və konstitusiyaya daha çox yer ayrılsın;

- təcriddən qurtarmaq üçün partiya başqa müxalif qüvvələrlə ittifaqa girsin. (Axı islamçıları repressiyadan qorumaq istəyən olmadığı halda görkəmli bir demokratın həbs olunarkən az qala bütün dünya hay-küy qaldırırdı).

Məlum da oldu ki, İP-nin daxilindəki mühafizəkarlar yeni dəyişiklikləri qəbul etmirdilər. Ona görə də partiyanın yeni rəhbərliyi zamanın tələbləri ilə mühafizəkarların meylləri arasında manevr etməyə məcbur idilər.

1997-ci ilin payızında İP-nin yeni liderləri Liberal və Sosial-Demokrat partiyaları ilə əməkdaşlıq haqqında saziş imzaladılır. Liberallarla islamçıları artıq məcraya yönəldən nəsnəni müəyyənləşdirə bilməyən qəzetlər bu faktı böyük təəccüblə işıqlandırdılar.

İP-nın növbəti məqsədi Müsavat idi. Müsavatın başqanı İsa Qəmbərlə söhbətlərdən sonra İP liderləri Müsavatın Divanına əməkdaşlıq haqda müqavilə təqdim etdilər.

Müqavilə hər iki partiya qarşısında müəyyən öhdəliklər qoyurdu:

- Müstəqilliyi möhkəmlətmək, demokratiyanı inkişaf etdirmək, konstitusiyanı müdafiə etmək;

- 1998-ci ilin payızındakı prezident seçkilərində əməkdaşlıq etmək (nəzərdə tutulmuşdu ki, İP Müsavatın namizədini dəstəkləyəcək);

- xarici missionerlər və qeyri-müsəlman təriqətlərə qarşı birgə mübarizə aparmaq.

Müsavat rəhbərliyi bu müqaviləni 2 ay müddətində müzakirə etdi. Seçkilərə hələ 9 ay qaldığından tələsməyə ehtiyac duyulmurdu. Əvvəlcə prezident seçkilərində daha bir qrup müttəfiq qazanmaq arzusu üstün gəldi. Müsavatçılar bu fikrə gəldilər ki, "missionerlərlə birgə mübarizə aparmaq" müddəasını mətndən çıxarandan sonra müqaviləyə imza atsınlar. Sonradan fikir dəyişdi: mövqeyini hələ dəqiq müəyyən etməmiş siyasi bir təşkilatla demokratların müqavilə bağlaması doğru hərəkət sayılmadı. Müsavatın Divanı mövqeyini belə açıqladı: "O zaman müqavilə bağlaya bilərik ki, İP-sı

Satış üçün nəzərdə tutulmayıb

demokratik təşkilat olduğuna, "demokratiya", "konstitusiya" və "insan haqları"nı düzgün anladığına əmin olaq. Ona görə də İP-sı ilə əvvəlcə qarşılıqlı anlaşma haqqında, hər iki partiyanın eyni dəyərləri bölüşməsi haqqında protokol imzalamalıyıq, yalnız bundan sonra əməkdaşlıqdan söhbət gedə bilər.

İP və Müsavat rəhbərləri məşvərət üçün görüş təşkil etdilər. Söhbət zamanı tərəflərin mövqeləri açıqlandı. Aydın oldu ki, bəzi islamçılar demokratiya anlayışını İran hökumətinin demokratiyası kimi qəbul edirdilər. İP rəhbərlərindən biri İrandaki "Vilayəti-Fəkih" rejiminin mahiyyətini belə açıqladı: "Dövlət məsələlərini adi adamlara etibar etmək olmaz. Çünki onlar səhv edə bilər. Ona görə də əvvəl Quranı yaxşı bilən dini rəhbərlər çərçivələri müəyyənləşdirməli, sonra adi vətəndaşlar bu çərçivədə səs verməlidirlər". Və "ölkədə əksər ahali müsəlmandırsa, demək qanunumuzda Şəriət qanunu olmalıdır. Konstitusiyaya gəlincə, "hələlik bu konstitusiyaya dözmək olar, gələcəkdə isə onu öz məqsədlərimizə uyğun dəyişədə bilərik".

Sonra Müsavat rəhbərliyi İP liderlərinə "Qarşılıqlı anlaşma haqqında protokol" layihəsi təqdim etdi. Mətn çox mürəkkəb görünməsədə, burada "tanış" olan demokratiya anlayışının bir çox görünməz əngəlləri vardı. Protokolda deyilirdi:

Biz, müqavilə imzalayan partiyalar razıyıq ki,

- Çoxluğun hakimiyyəti BMT-nin İnsan Haqları Ümumi Deklarasiyasında göstərilən fərdi və siyasi haqlarla məhdudlaşmalıdır;

- Din hər kəsin şəxsi işi olub dövlətdən ayrı olmalıdır;

- İnsanın hansı dinəsə sitayiş etmək ya etməmək və dinini sərbəst dəyişmək hüququ var;

- İnsan dini ayinləri təkbaşına, yaxud həmfikirləri ilə birgə yerinə yetirmək, sərhədlərdən asılı olmayaraq öz etiqadını sərbəst yaymaq hüququna malikdir;

- Məqsədimiz bütün İslam Ümməti yox, Azərbaycan dövlətidir.

Protakolla tanış olan islamçılar ona münasibətini ertəsi gün belə açıqladılar.

- BMT-nin Deklarasiyasını yazan insanlardır. Biz isə insana yalnız Allah tərəfindən verilən və Quranda göstərilən hüquqları qəbul edirik.

Satış üçün nəzərdə tutulmayıb

- Dinin dövlətdən ayrılması o deməkdir ki, belə dövlətdə dindar adamlara yer verilməyəcək, deməli, Allahsız bir dövlət yaranacaq.

- İnsan öz inamında (İudaizm, Xristianlıq, İslam) azaddır, sektalar isə inam yox, yalançı inamlardır.

- İnsan Xristianlıqdan İslama keçməklə öz etiqadını dəyişə bilər, əksinə isə edə bilməz. İslam ən mükəmməl və sonuncu din olduğu üçün Quran İslamı dəyişməyi qadağan edir.

- İnsan istənilən dini ayinləri təkbaşına yerinə yetirə bilər, qrup daxilində yox. Heç kəsin gəncləri və zəif iradəliləri çaşdırmaqla yalançı dinləri yaymağa haqqı yoxdur.

- Məqsədimiz Azərbaycan və eyni zamanda bütün İslam Aləmidir.

Müsavat rəhbərliyi cavabları nəzərdən keçirib belə nəticəyə gəldi ki,
bu mövqe İP yenilik tərəfdarları ilə mühafizəkarlar arasındakı gərgin daxili mübarizənin təzahürüdür. Buna görə də Müsavat İP ilə siyasi əməkdaşlıq haqda müqavilə hələki bağlamamaq və məsləhətləşmələri davam etdirmək qərarına gəldi.

Məsləhətləşmələr davam edir.

## NƏTİCƏ

Yuxarıdakıları nəzərə alaraq ölkədə dini və dünyəvi siyasi düşərgələrin birgə fəaliyyət prinsiplərini qısaca göstərək.

Dünyəvi dövlət sistemi tərəfdarları demokratik prinsiplərinə ciddi riayət etməlidirlər:

a. Heç kəsin dindar adamların siyasi prosesdə iştirak etməsini məhdudlaşdırmaq hüququ yoxdur.

b. İnsanın yaxud icmanın dünyəvi həyat tərzi sürmək kimi dini həyat tərzi sürmək hüququ da var.

v. Hər hansı etiqadı təmsil edən yeni dini təşkilatlar Konstitusiyaya görə insana verilmiş bütün hüquq və azadlıqlardan istifadə etməlidirlər.

q. Heç bir dini təşkilat sübutsuz cəmiyyətimizə zərər verməkdə ittiham oluna bilməz.

Satış üçün nəzərdə tutulmayıb

Dindar siyasətçilər də BMT sənədlərində və Konstitusiyamızda göstərilmiş demokratik prinsiplərə riayət etməlidirlər:

a. Ölkədə siyasi fəaliyyətinin əsas məqsədi bütün İslam Dünyasını yox, Azərbaycanın Milli maraqlarını qorumaqdır.

b. İnsanın şəxsi həyatına müdaxilə edən, insanın bu və ya başqa ideoloji və ya dini qaydalara riayət etməyə məcbur edən hökumət qurmağa heç bir kəsin ixtiyarı yoxdur.

v. Heç bir siyasi, elmi, yaxud dini nüfuz sahibinin insanın nə vaxt, kimə və necə səs vermək qərarına təsir göstərməyə haqqı yoxdur.

q. İnsanın öz dininə sitayiş etmək və ya heç bir dinə sitayiş etməmək, eləcədə dinini dəyişmək haqqı var.

d. Hər bir insanın İslamı, hər hansı bir başqa dini yaxud ideologiyanı öz bildiyi kimi qavramaq haqqı var.

Tərəflər bu şərtlərə əməl etməsələr ölkədə vətəndaş sülhünə nail olmaq mümkün olmayacaq.

Və ən axırda icazə verin çox sadə dildə din azadlığının vacibliyi haqqında belə deyim:

- Əgər sektaları bu gün qadağan etsələr, onda sabah İslam partiyasını da qadağan edəcəklər. Birisi gün isə hər cür müxalif fikir də qadağan olunacaq.

Mətnin Sonu

* * *

# 4. "Dini və dünyəvi demokratların birgə yaşayış problemləri"nə dair Konfransın yaratdığı mənzərə

(Aprel-İyun 1998)

Satış üçün nəzərdə tutulmayıb

(III ERA Jurnalı, N3, SENTYABR 1998)

Konfransa deviz kimi Qurani-Kərimin bir ayəsi, - «Dində məcburiyyət yoxdur» ayəsi seçilmişdi. Proqramın təşəbbüsçüləri bu devizlə iştirakçıların diqqətini dini azadlıq çərçivəsində tolerantlıq, başqa dinlərə dözümlü olmaq mədəniyyətinə çəkmək istəmişdilər. Konfrans apreldən başlayan müzakirələrin, seminarların sonucu olaraq 1998-ci ilin iyun ayında keçirildi. Həm seminarlarda, həm də Konfransda iştirak edənlər islamçı siyasətçilərdən tutmuş dünyəvi demokratlara və şərqşünaslaracan ən müxtəlif sahələrdən fəalları, araşdırıcıları əhatə edirdi. Tədbirlərdə «tamaşaçı» mövqeyində xeyli jurnalist və siyasi partiyalardan, vətəndaş qurumlarından nümayəndələr iştirak edirdi.

Proqramın gedişində davamlı özünü göstərən ən gərgin məqamlar iki iddianın üz-üzə durmasından yaranırdı. Həmin iddialardan biri islamçı siyasətin və siyasətçilərin hüququ, eləcə də islamçı siyasətçilərin demokratiyaya qarşı iddiaları idi. O biri iddia islamçıların demokratik toplumun dəyərlərinə, gərəklərinə uyğun olaraq dəyişmək istəməməsi haqqında ittihamdan doğurdu (Proqramın gedişində hətta demokratik prinsiplərlə razılaşan islamçılar da, görürdün, elə anti-demokratik atmacalar atırdılar ki, bu, onların demokratiyaya inamının səmimiliyinə şübhə yaradırdı). Bu gərginliyi, sayğılı oxucu, Siz «III Era»nın indiki sayında verdiyimiz yazıların bir-biri ilə ziddiyyətində aydın sezəcəksiniz.

Məqalələri qruplaşdırmaq üçün ortaq tezislər tapmaq istəsək, yəqin aşağıdakı «siyahını» alarıq:

- İslamın yüksək dəyərini bilmək gərəkdir və o da bilinməlidir ki, İslama qarşı demokratiyanın, Qərb dünyasının təcavüzü var (islamçı mövqedən yazılmış məqalələr);
- İslam modernləşməyə açıqdır, buna əngəl olan islamçılar isə gericil mövqe tuturlar (İslama çağdaş dünyanın problemlərindən yanaşan məqalələr);
- İslam millətçi siyasətdə (İraq, İran, Suriya Türkiyə faktlarında şərqşünas məqalələri);
- Demokratiyanın, din azadlığının islamçılar üçün yaratdığı situasiyalar (dini azadlıq şəraitində yaşamağın tələbləri).
- Din və dövlət

Sadaladığımız bu tezislər, əslində, «İslam və siyasət» problemi üçün yeni deyil. O biri tərəfdən, sanki dini azadlıqla bağlı da hər şey aydındır. Ancaq Konfransın materialları göstərdi ki, tezislər əski olsalar da, mübahisəli məsələlər hələ də (hər halda Azərbaycan variantında) qalmaqdadır. Bəzən bu mübahisələrə səbəb, yumşaq desək, hansı tərəfinsə problemlə bağlı son elmi nailiyyətlərdən xəbərsiz qalması olurdu.

Satış üçün nəzərdə tutulmayıb

Proqramın tədbirlər silsiləsi qarşı tərəfin sübutlarına, məntiqinə gözüyumulu qalmağın da tipik örnəklərini verdi. Mübahisələr bəzən məhz belə dialoqa qapalı qavrayışlardan doğurdu. Görünür, bu vəziyyəti nəzərə alaraq da Müstəqil Politoloqlar Birliyinin sədri Hüseynbala Səlimov «demokratiyanın mikroprosesi» terminindən istifadə edərək bildirdi ki, indiki müzakirələrimizdə biz demokratik mikroprosesdə iştirak edirik. Doğrudur, biz özümüzü demokratlar elan edə bilərik, «BMT-nin İnsan Haqlarının Ümumi Bəyənnaməsi»nı yaxşı-yaxşı əzbərləyə bilərik, ancaq rəqiblərimizlə konkret diskussiya konfliktlərinə girəndə bizim demokratikliyimiz sınaqlara düşür. Özümüzü müşahidə etməyimiz üçün nadir bir fürsət əlimizə keçir.

Göründüyü kimi, diskussiyalarla bağlı nöqsanları təkcə bir tərəfin adına çıxmaq vacib deyil. Hər halda Hüseynbala  Səlimov bəzi nöqsanlara bütün tərəflərin yol verməsi fikrinə düşərək bunu öz məqaləsində də təkrarladı. Məsələni Proqramın gedişi boyu yer almış intensiv replika «atışmalarından» bir hadisə ibrət prinsipində yaxşı açır. İslamçı çıxışçının sözlərinə reaksiya olaraq kimsə tikanlı söz atdı: «Siz niyə İran ləhcəsində danışırsınız?» Bu an tərəflər arasında kəskinlik az qala zirvə nöqtəsinə çatacaqdı ki, İnsan haqları  aranı soyutmaq üçün aparıcının dadına çatdı və o, gözlənilən dilləşməni bu sözlərlə dayandırdı: kim hansı ləhcədə istəyirsə, o ləhcədə də danışmaq haqqı var. Bunu eşidən bir islamçı səsləndi: "Düzdür! Yaşasın Demokratiya"

Seminarlarda diskussiya aparmaq manerasının nöqsanlarından törəyən mübahisələrlə yanaşı problemin, mövzunun mürəkkəbliyindən gələn mübahisələr də vardı. Məsələn, İslam və Demokratiya Təşkilatının sədri Nəriman Qasımoğlun  çıxışı «Azərbaycanda İslamın problemlərinə dair bəzi mülahizələr» adlanırdı və müəllif həm din, həm də demokratiya mövqeyindən Konfransın iştirakçısı olmuş islamçı siyasətçilərlə xeyli məqamlarda qarşı-qarşıya dururdu.

Bu çıxışçı İslamın təriqətlərə parçalanmasının əleyhdarı olsa da, bugünkü dini rəngarəngliyə dözümlü olmağa çağırırdı və israr edirdi ki, "Demokratik dəyərlər şüurlara get-gedə hakim kəsildikcə dinsiz-dindar, sünni-şiə, müsəlman-xristian-yəhudi münasibətlərinin tənzimlənəcəyini güman etmək mümkündür.

Nəriman Qasımoğlunun bu inamı liberalizm mövqeyindən edilmiş başqa bir çıxışın, «Böyük dinlərdə islahatlar. Dini çağdaşlaşdırmaq cəhdləri» (Niyazi Mehdi) adlı çıxışın verdiyi baxışla bir qədər uyuşmurdu. Bu axırıncı çıxışda deyilirdi:  «Hüquq sistemlərindən biri də dini azadlığa, dinlərin bərabər hüquqluğuna yol verə bilər. Belə bir vəziyyətdə sual doğur: «bəs haqlı, düz yolda olan hansı dindir?»

Satış üçün nəzərdə tutulmayıb

İslamı çağlaşdarmaq yoluna gəldikdə isə Niyazi Mehdi  bildirmişdi: “Bilməliyik ki, dini anlamağı, dini ibadəti çağdaşlaşdırmaq heç də dindən gələn yüksək mənəvi tələblərdən üz döndərmək deyil. Tərsinə, yeni tarixdə dini islahatlar dinin xarici təzahürlərini sadaləşdirməklə bərabər dinin mənəvi tələblərini daha da kəskinləşdiriblər. Bu islahatlar, artıq, qoymur ki, kimsə «fariseyçilik» edib dini rituallarla Allah və insanlar qarşısında qeyri-səmimiliyini gizlətsin. Əslində dinə qayıdış, məhz budur. Bu çıxışı yapan dinlərə, təriqətlərə «düz olan - yanlış olan» tərəzisindən baxmağı yanlış sayırdı və eyni mövqeyi biz Dinlərin Görüş Mərkəzinin sədri, dosent Dilarə Mehdinin jurnalımızda çap olunmuş məqaləsində də görürük: «Kafir və mömin» anlayışları əsasında insanları klassifikasiya edən dindarlar heç cürə başa düşə bilmirlər ki, niyə başqa dindəki adamları kafir saymaq düz deyil. Heç cürə başa düşə bilmirlər ki, niyə «doğru olan - doğru olmayan» tərəzisi ilə dinlərə yanaşmaq irrelevantdır, yəni məsələyə dəxli olmayan  ölçüdür». Göründüyü kimi, hətta demokratik cərgədə duran araşdırıcılar arasında tolerantlıq məsələsində fikir ayrılığı olmasa da, təriqətçiliyin həqiqət baxımından dəyərləndirilməsində müəyyən fərqlər var və bu onu göstərir ki, dinə demokratik baxış demokratların arasında belə, mübahisələri istisna etmir.

Konfransda İslam missionerlərinin fəaliyyəti ilə bağlı Hər-hansı təriqətçilik «fobiyasından» uzaq bir çıxışı Şəkidən («Əkinçi» cəmiyyətinin sədri) Şahsuvar Ağayev etdi. Faktiki materiallarla dolu olan bu çıxış yüksək tolerantlıqla seçilirdi.
AXCP sədrinin siyasi işlər üzrə müavini Fazil Qəzənfəroğlu “Dünyəvi dövlət və din münasibətlərində uyuşmazlıq təzahürləri» çıxışında dini siyasətin, dini azadlığın konkret siyasi situasiyada problematik hallara düşməsini Türkiyə faktlarında incələdi. Onun məqaləsindən görəcəksiniz ki, yazar Türkiyə Konstitusiya məhkəməsinin «Rifah» partiyasını yasaq etməsini həm prosedur baxımından nöqsanlı sayır, həm də çalışır sübut etsin ki, belə bir islamçı partiyanı özünə inteqrasiya etmiş  türk siyasi sistemi böyük bir çeviklik nümayiş etdirirdi, ona görə də məhkəmənin sərt qərarına gərək yox idi. Axı, «Rifah» siyasətdə boş guşəni tutmaqla dövlətçiliyə xidmət edirdi.

Bu çıxışa etiraz edərək Türkiyə Böyük Elçiliyinin nümayəndəsi Turqut Ər ölkəsində dini azadlığın kifayət qədər olmasını, özü də qanunla müəyyənləşdirilməsini bildirdi. O, din sahəsinə dövlət nəzarətini, bəzi dini geyimlərə qoyulmuş yasaqları İnsan haqları baxımından tam normal sayırdı və duyulurdu ki, din məsələsində “idarə olunan demokratiya tərəfdarıdır”. Belə mövqe Konfransda islamçıların kəskin etirazına səbəb oldu Bir islamçı isə: “Kim nə istəyir geysin!” şüarını səsləndirdi və deyəsən, bu zaman unutdu ki,  müdafiə etdiyi İslam dövlətində, oxşar şəkildə, “dinsizlərin» libasına yasaq var. Turqut bəylə,  haradasa yaxın mövqeni Müsavat Partiyası Divanının üzvü, politoloq Rasim Musabəyov da bölüşdürürdü. Onun Konfransa təklif etdiyi ideya təxminən belə idi: Din dövlətdən ayrı olmalıdır, ancaq eyni zamanda dövlət çoxluğun mənsub olduğu

Satış üçün nəzərdə tutulmayıb

İslama siyasi və maddi yardım göstərməlidir. İslam isə ölkədəki işlərdən qıraqda qalmaq istəmirsə, praktikası həm məzmunca, həm də estetik cəhətdən modernləşməlidir.

Bizim başqa bir müəllifimiz, - "Azadlıq" qəzetinin şöbə müdiri Zamin Hacı özünün «Azərbaycanda dövlət və cəmiyyətin dini icmalara münasibəti» çıxışında dinlərin, təriqətlərin dövlətlə münasibətlərinə, artıq, nəzəri yox, Azərbaycan qanunvericiliyi və gerçəkliyi kontekstində baxırdı və bu münasibətlərdə insan hüquqlarının pozulması haqqında məlumat verirdi.

Beləliklə, demokratik baxımdan dini azadlıq problemlərinə yanaşan iki yazarımız — Zamin Hacı və Fazil Qəzənfəroğlu dini azadlığa hər hansı xəsarəti vuran qanuna kəskin tənqidlə yanaşırlar. Məsələyə belə yanaşma FAR CENTRE qurumunun nümayəndəsi Hikmət Hacızadənin də əsas tezislərindən bilinir. «Azərbaycanda vicdan azadlığı» adlanan çıxışında o göstərirdi ki, Azərbaycanda dünyəvi siyasətçilər arasında belə bir fikir yayılıb ki, «din adamları siyasətlə az məşğul olmalıdırlar». Ancaq bu fikir nə İnsan haqları üzrə Bəynalxaq Sazişlərin, nə də öz Konstitutsiyamızın demokratik prinsiplərinə uyğun gəlir.

Çıxışçı din adamlırının siyasətdə tam hüquqlu subyekt kimi iştirakına israr edərək onların siyasi partiya yaratmaq hüququnu müdafiə etdi. Ancaq sonra bunu da əlavə etdi ki, dinçi siyasətçilər öz dinlərindən gələn qaydaları cəmiyyətin bütün — inanan, inanmayan, başqa dinə inanan adamlarına sırımaq psixologiyası ilə də vidalaşmalıdırlar.

Ona görə də əsas problem dini demokratlarla dini siyasətçilərin siyasi hüquq bərabərliyini tanıyandan sonrakı mərhələdə başlayır. Necə etməli ki, bu iki tərəf o birisini yox etmək arzusunu özündə gəzdirmədən onunla birgə yaşayışını qura bilsin; necə etməli ki, qarşılıqlı rəqabət ölkənin müstəqilliyinə, demokratik inkişafına ziyan vurmasın.

Beləliklə, biz üç müəllifin yazısı əsasında demokratiyanın ümumi mövqeyinin şahidi olduq. Konfransda çıxış edən islamçı siyasətçilər isə dini azadlığa qarşı qoyulan əngəllərə yalnız İslamla bağlı diqqət edirdilər: «Demokratiyanın anası sayılan Amerikada dünyanın 100 dahi adamı haqqında kitab buraxılıb. O kitabda birinci Həzrət peyğəmbərin (s) adı yazılıb. Bizim belə bir rəhbərimiz olduğu halda niyə özümüzə rəhbər axtarırıq? Əgər insanlar haçansa İslam qanunları ilə idarə olunan dövlət, cəmiyyət istəyəcəklərsə, bunun qarşısını məgər almaq demokratiya uyğundurmu?» (Bunlar Məşədi Hüseynağa Sərdərovun çıxışındandır).

Dini azadlığın Azərbaycandakı başqa dinlər və təriqətlərlə bağlı problemlərinin Proqramın silsilə diskussiyalarında bizim islamçıları bir o qədər də maraqlandırmadığı duyulurdu. Onlar dinlərlə bağlı demokratiyanın ümumi problemindən danışmaqdan çox söhbəti Qərb və qərbçi təcavüzlərdən İslamı qorumaq üstündə qurmağa üstünlük verirdilər. Bu baxımdan, Azərbaycan İslam Partiyasının Neftçala rayon komitəsinin sədri

Satış üçün nəzərdə tutulmayıb

Məşədi Hüseynağa Sərdərovun çıxışı və məqaləsi göstərici ola bilər. Onun ittihamına baxaq: «Təəssüf ki, bu gün Azərbaycan demokratları Avropa mədəniyyətinə, demokratiyasına elə bağlanıb, vurulublar ki, az qalıblar bu ölkələrin bütün dövlətçilik, əxlaq ənənələrini Azərbaycan cəmiyyətinə tətbiq etsinlər. Bu, qətiyyən yolverilməzdir. Çünki hər xalqın öz inkişaf yolu, adət-ənənəsi, özünün milli, dini psixolgiyası mövcuddur. Dövlət quruculuğunda bu dəyərlər nəzərə alınmazsa, onda dövlət və xalq arasında bu gündən uçurum yaradırıq".

Proqramda iştirak edən islamçılar siyasətin və dövlətin İslam ideologiyası əsasında birbaşa formalaşdırılmasında siyasətin mənəviləşdirilməsinin, xalqın xidmətinə verilməsinin qarantını görürdülər. Şərqşünaslardan BDU müəllimləri Aidə Bağırova ilə Nərgiz Axundovanın çıxışları və məqalələri İraq, Suriya faktında, BAAS partiyasının ideya sistemində İslamın yerini incələyərkən dolayı da olsa, islamçıların bu inamlarına uyuşmayan vəziyyətləri ortaya çıxartdılar. Həm İraqda, həm Suriyada BAAS partiyasının proqramlarında İslam amili yetərincədir. Ancaq nə İraq iqtidarının, nə Suriya iqtidarının siyasəti xüsusi bir mənəviliyi, xalqa xidməti ilə tanınmır.

Konfransda Müsavat Partiyasının başqanı İsa Qəmbərin çıxışında Azərbaycan mədəniyyəti, eləcə də Azərbaycan siyasi mədəniyyəti üçün İslamın önəmini maraqlı ifadələrlə açan fikirlər oldu. O, «azadlıq və din» məsələsinə toxunanda İran Prezidenti Xatəmidən gələn bir fikri xatırlatdı: iqtisadiyyat, mənəviyyat, siyasət, mədəniyyət, din sahələrində nə vaxt ki, hansısa bir qüvvə azadlığa qarşı çıxıb, tarix göstərir ki, sonda məğlub olub.

Bu çıxış demokratlara çox uğurlu bir gediş kimi gəlsə də, növbəti çıxışçı Ağa Mehdi bəy Vaqif həmən üsuldan istifdə edərək demokratların avtoriteti olan Məmmədəmin Rasulzadənin erkən əsərlərindən böyük bir sitat gətirdi. Sitatda Azərbaycan üçün İslamın önəmi göstərilirdi. Deyəsən, «evdə hazırlanmış» bu fəndlə islamçılar konfransdakı demokratları pərt etmək istəyirdilər. Ancaq necə başa salasan ki, demokratlar üçün avtoritet olmur.

İslamçı siyasətçilərdən Hacı Azər Ramizoğlunun (İslam İctihad Cəmiyyəti) məruzəsi Konfransın dəyərli və demək olar ki, simvolik sonluğuna çevrildi. O, səviyyəli demokratik mövqedən çıxış edərək özlərini həqiqət sahibi sayan demokratları sərt bir sual qarşısında qoydu: əgər belə azadlıq sevərsinizsə, nədən demokrat Elçibəy hakimiyyətində din xadimlərinin siyasi prosesdə iştirakını məhdudlaşdıran qanun çıxarılmışdı?!

Beləliklə, dairə qapandı. Millətçilər islamçıları, demokratlar millətçiləri, islamçılar isə demokratları səmimi olmamaqda və İnsan haqları məsələsində ikili standarta yol verməkdə günahlandıra bildilər. Hər halda bu konfransda hamı öz sözünü dedi və eyni zamanda qıraqdan da özünə baxdı. Udan Azərbaycan demokratiyası oldu•

Satış üçün nəzərdə tutulmayıb

Mətnin Sonu

* * *

# 5. İnsan Haqları “Xeyrimizə” Pozulursa

Hikmət HACIZADƏ
«Yeni Müsavat» qəzeti, Sentyabr 4, 2001 (11-ci səhifə)

Ölkəmizdə insanın siyasi haqlarının pozulması adi, barəsində kifayət qədər yazılmış bir işdir və bu, həm cəmiyyətdə həm də mass-mediada etirazlar doğurur. Ancaq Konstitusiya ilə müdafiə olunan hüquqlar arasında elələri də var ki, cəmiyyət onların pozulmasına biganə qalır və hətta bunları razılıqla qəbul edir. Belə hesab edilir ki, bu pozuntuları hökumət “ictimai maraqlar”a uyğun, yəni “bizim xeyrimizə” edir. (Xatırladaq ki, “İnsan Haqları” termini “Dövlətin bizim şəxsi, ictimai və siyasi həyatımıza müdaxiləsindən müdafiə haqları” deməkdir.)

Müstəqillik dövründə pozulması bizim təəssüfümüzə səbəb olmayan insan haqları qrupuna din və mülkiyyət azadlığı kimi vacib şəxsi hüquqlar da daxil olub. Bu cür vəziyyət qeyri-adidir, çünki tarixən orta əsr Avropasında İnsan Haqları uğrunda hərəkat din azadlığının vahid kilsənin diktəsindən və şəxsi mülkiyyətin Dövlətin qəsdindən müdafiəsi hərəkatı ilə başlayıb.

## “BİZİM DİN” YOXSA DİN AZADLIĞI?

Heç şübhəsiz, ekstremist dini təşkilatlar ətrafında baş verən hadisələr (“Ceyşullah”ın hərəkətləri, akademik Ziya Bünyadovun qətli, bəzi İranmeylli şiə fəallarının aktivləşməsi və s.) bizi narahat etməyə bilməzdi. Ancaq hökumətin və hətta bizim bəzi demokratların təklif etdiyi mübarizə üsulları Konstitusiyanın ziddinədir və yalnız əks nəticə verə bilər.

Mən dindar olmasam da, din azadlığını bizim Konstitusiyamızda təsbit olunmuş digər azadlıqların (həm şəxsiyyət, həm də bizim bütövlükdə demokratiyamız üçün) heç birindən az əhəmiyyətli hesab etmirəm.

Satış üçün nəzərdə tutulmayıb

Deyirlər bizdə din azaddır. Əfsus ki, bu belə deyil. Əgər ölkədə məscid və kilsə varsa, bu, heç də din azadlığının mövcudluğundan xəbər vermir. İranda, Səudiyyə Ərəbistanında və Çində hakimiyyətin icazəsi ilə fəaliyyət göstərən məbəd olsa da, orada din azadlığı yoxdur. Kim üz Allahına üz istədiyi kimi ibadət etmək istəsə, bu, həm hakimiyyət, həm də cəmiyyət tərəfindən təqib olunur. Həmin nöqteyi-nəzərdən yanaşsaq, "Azərbaycanda din azadlığı mövcuddur kimi ifadələr son beş il ərzində mübahisə doğurur. Və əgər hökumətin və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bu sahədə planları həyata keçirilsə, onda bu mübahisəli azadlıqdan da heç nə qalmayacaq.

"Exo" qəzetinin İnternet Forumunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Rafiq Əliyevin çıxışını oxuyarkən sanki qarşında Dövlət məmurunu yox, hakimiyyətə gəlmiş din xadimini görürsən. Bu müsahibədən aydın olur ki, Komitə QMİ ilə birlikdə vətəndaşların dini işlərinə təsirli müdaxilə etmək istəyir. Bundan əlavə, onun kimə və necə ibadət etməsi kimi Dövlət məmuru üçün yolverilməz olan xüsusi rəyi də var: "Fikrimcə, məktəblərdə dinin tarixi məcburən tədris olunmalıdır." Qeyd edək ki, ABŞ və Avropa Şurası ölkələrində "dinin tarixi"nin öyrənilməsi könüllüdür. "Vətəndaşlar dinin tarixi və... dinin zərurət olması barədə informasiya almalıdırlar". Dünyəvi Dövlətlərdə dinin heç bir zəruriliyi, labüdlüyü ola bilməz.

Müsahibədə dindarlara nəyə və necə ibadət etmək tövsiyə edilir: "Müqəddəs adamlara yox, Allaha ibadət etmək lazımdır; duanı istənilən dildə oxumaq olar, ancaq namazı ərəbcə yerinə yetirmək lazımdır; dini mahnılar insanlara təsəlli versə də, bu heç də lazım olan şey deyil, gərək insana sözlərlə və örnəklə təsir edəsən"; və nəhayət, "Ömür çox qısadır, və arzuolunmaz nəticələrə aparan cürbəcür
yolları sınamağa ehtiyacımız yoxdur". Maraqlıdır, müəllim, "ehtiyacımız yoxdur" dedikdə kimi nəzərdə tutursunuz?

Bu cür fikirlər din xadiminə yaraşsa da, Dövlət məmuru üçün qəti surətdə qadağandır və demokratın dilindən bu cür sözlər çıxmamalıdır. Ona görə ki, onların hamısı üçün heç bir "bizim" dinimiz yox, yalnız din azadlığı mövcuddur!

Bəs görəsən, etiqadı R.Əliyevin baxışları ilə üst-üstə düşməyənlər necə olacaq? R.Əliyevin sözlərindən belə çıxır ki, bu cür dini təşkilatlar qeydiyyatdan məhrum ediləcəklər. Dini sahədə hakimiyyətin nəzarətini həyata keçirən bu Komitə Şeyxülislamın idarəsi ilə yaxın əməkdaşlıq etmək fikrindədir. Şeyx isə artıq cümə günləri məscidlərdə axundların yalnız onun təsdiq etdiyi duaları oxuyacaqlarını bildirib. Axı, bu cür ancaq dinsizlər ibadət edə bilər! Bəs şəxsi seçim? Allah qarşısında şəxsi məsuliyyət və dindarın vicdanı harada qalır?

"Dövlət dindən ayrıdır". Təəssüf ki, bu tanış tezis düzgün başa düşünülmür, çoxsaylı islamçılar tərəfindən rədd edilir və ədəbiyyatda düzgün istifadə edilmir. Amma ABŞ

Satış üçün nəzərdə tutulmayıb

Konstitusiyasında bu, çox dəqiq göstərilib: "Konqres hansısa dini təsis edən və ya onun azad yerinə yetirilməsini qadağan edən qanunlar qəbul edə bilməz..." Beləliklə bu Komitənin planlarına baxsaq, onların antikonstitusion olduğu aydın görünər.

Konstitusiyamıza və imza atdığımız İnsan Haqları üzrə Avropa Xartiyasına uyğun olaraq ancaq aşağıdakı təşkilatları qadağan etmək olar:
1. Demokratik hökuməti, yaxud demokratik quruluşu devirmək istəyənləri;

2. İnsanların diskriminasiyasını və müharibəni təbliğ edənləri;

3. Üz üzvlərini azadlıqdan məhrum edənləri (üz üzvlərinin psixikası üzərində total nəzarət etməyə cəhd göstərənləri). Dini təşkilatların qalan fəaliyyətinə heç bir müdaxilə etmək olmaz.

## QEYDİYYAT HAQQINDA

Bir neçə kəlmə də ictimai və dini təşkilatların qeydiyyatı barədə. Keçmiş ədliyyə naziri Südabə Həsənovanın qeydiyyatı olmayan təşkilatların fəaliyyətinin qanunsuz olduğu barədə cəmiyyətə yaydığı fikir düzgün deyil. Nə Konstitusiya, nə qanun həmfikir olanların bir yerə yığışmaq və ictimai aktivlik göstərmək üçün qeydiyyata alınmağı tələb etmir. Qeydiyyat onlara yalnız möhür almaq və bankda hesab açmaq kimi əlavə hüquqlar verir. Azərbaycanın imza atdığı Vyana Konfransı aktına və Avropa Şurasının xüsusi qərarına görə bizim hakimiyyət "bütün təşkilatlara qeydiyyat hüququ verir, qeydiyyata alınmayan təşkilatların fəaliyyətinə isə mane olmur" kimi öhdəlik götürüb.

## DİN AZADLIĞI NƏYƏ LAZIMDIR?

Din azadlığı bizə nə üçün lazımdır? Hamının eyni Allaha, eyni, hökumətin müəyyənləşdirdiyi, yolla ibadət etməsi cəmiyyət üçün daha məqsədəuyğun deyilmi? Xeyr, məqsədəuyğun deyil. Hətta bu, bizim mənəviyyatımız üçün təhlükəlidir. Çünki dinin cəmiyyət üçün qiyməti təkcə avtoritetlərin sözünə baxmaq və insanın axirət günündən qorxusu ilə deyil, ilk növbədə vicdanla ölçülür. Məhz əsl dindar adamın təmiz vicdanı ona yalan danışmağı, oğurlamağı və ədalətsizlik qarşısında susmağı yolverilməz edir. Təsadüfi deyil ki, demokratiyanın nəzəriyyəçiləri vicdanı demokratik Dövlətin sementi və "respublikaçılıq dəyərlərinin" (bərabərlik, düzgünlük, fədakarlıq, həmrəylik və s.) əsas tərkib hissəsi kimi hesab edirlər. Təəssüf ki, postsovet məkanında politoloq və publisistlər bu dəyərləri demokratiya üçün o qədər də vacib saymır və əvəzində gen-bol insanın "cib maraqlarından" bəhs edirlər.

Satış üçün nəzərdə tutulmayıb

Siz təmiz vicdanlı dindara rast gəlmisinizmi? Bu gün onlar az olsa da, mən belələrini görmüşəm. Onlardan biri üz ticarət köşkündən sahə müvəkkilinə "haqq" ödəməkdənsə, iki ay türmədə yatmağı üstün tutmuşdu. O, deyirdi ki, "bu, günahdır, vicdanım belə hərəkət etməyə yol vermir." Bu insan indiyə qədər də polisə rüşvət vermir. Dirçəlişimizin ümidi varsa, o məhz bu cür adamlardır. Üzü də hökumətin dindarların vicdanına nəzarəti ilk növbədə məhz belələrinə zərbə olacaq.

Mən cəmiyyətin dini sahədə neqativ hallarla bağlı narahatlığını qəbul etsəm də, hökumətin din strukturlarını katolik kilsəsi kimi mərkəzləşdirilmiş şəkildə idarə etmək barədə planlarını kənara qoymağın tərəfdarıyam. Bu, həm Konstitusiyanın, həm də İslamın ziddinədir. Hökumət mollaları üz istədiyi kimi geyindirə, onları təsdiq olunmuş dualarla təchiz edə bilər, amma bu yolla nə onların, nə də digər dindarların vicdanını oyada bilməz.

## MÜLKİYYƏT HÜQUQU MƏTBUAT SƏHİFƏLƏRİNDƏ

Kommunist quruluşundan sonra sonadək anlamadığımız şeylərdən biri də mülkiyyət hüququdur. İnsanın mülkiyyəti Konstitusiya ilə müdafiə edilir və ancaq müharibə və ya təbii fəlakət zamanı hökumət ədalətli kompensasiya şərtləri ilə vətəndaşı üz mülkiyyətindən ayıra bilər. Hökumətimizin insanın mülkiyyətinin başına hansı oyunu açdığı barədə yazmağa ehtiyac yoxdur. Ancaq mülkiyyət hüququnun pozulmasına cəmiyyətin və qəzetlərin münasibəti diqqətlə araşdırılmalıdır. Cəhd etdikdə məlum olur ki, cəmiyyətdə mülkiyyət hüququ anlayışı kifayət qədər dağınıqdır. "Mülkiyyət - insanın düz yolla əldə etdiyi maddi və intellektual dəyərlərdir." Bizim qəzetlərdə isə insanın nəzarət etdiyi istənilən əmlak mülkiyyət hesab olunur.

Biz qəfil qəzet səhifələrindən öyrənirik ki, dünyada bütün(?) mülkiyyətin əsasında oğurlanmış sərvət durur və dünyanın heç yerində(?) bu (oğurluq) mülkiyyət yenidən müzakirə mövzusu olmur. Stabil olaraq hər rübdə bir dəfə qəzetlərimizin iqtisadi şərhçiləri parlamenti oğurlanmış sərvətlərə amnistiya tətbiq etməyə çağırır. Bunu onunla əsaslandırırlar ki, belə olsa, "biznesmenlərimiz" pullarını xaricə çıxarmazlar. Acınacaqlı haldır ki, ölkədə bu cür amnistiya hələ AXC hakimiyyəti dövründən fəaliyyət göstərir. Bu zaman bizim şərhçilər "biznesmenlərin" heç də hamısının "kimsəsiz" alüminium və neft hesabına varlanmadığını, çoxlarının zorla başqa vətəndaşların pullarını və əmlakını əlindən aldıqlarını unudurlar. Mən həmin şərhçinin üz mənzilinə güclə girmiş nüfuzlu şəxsin amnistiyasına çalışacağına şübhə edirəm.

Satış üçün nəzərdə tutulmayıb

Hökumətin insanın mülkiyyətini ələ keçirməsini cəmiyyət də bağışlamağa hazırdır. Xüsusən o vaxt ki, bu zəbtetmə "cəmiyyətin maraqlarına uyğun", yəni bizim "xeyrimizə" baş verir. Şəhərdəki yeni fontanları bizim vətəndaş alqışlayır. Ancaq həmin fontan onun götürülmüş köşkünün yerində olsa, reaksiya tamam fərqli olardı. Heç kim də maraqlanmır ki, "meriya" bu qədər fontanın tikilməsinə pulu hardan tapır? Büdcədə belə vəsait yoxdur. Bəs bu pullar haradandır, müəllim? Yeri gəlmişkən, Bakıda köşkləri kompensasiya ödəmədən hələ 1992-ci ildə, mərhum "mer" Rauf Gülməmmədovun vaxtında götürməyə başlamışdılar. Görünür, bu, zaman xaricində olan, ideologiyadan kənar və dərin milli bir təzahürdür.

"Meriya"nın avtobus sahiblərindən təqaüdçüləri və veteranları (sərnişinlərin 30%) pulsuz daşımağı tələb etməsi də insanın mülkiyyət hüququnu pozmaqdır. Axı, nəyə görə, xəzinəyə vergi ödəyən avtobus sahibi üzünün o qədər də böyük olmayan gəlirindən məhrum olmalıdır? Əgər hökumət güzəştli şəxslərə kömək etmək istəyirsə, onda həmin şəxslərə gediş haqqı üçün pul ödəsin, ya da avtobus sahiblərinin ödədiyi verginin 30% ləğv etsin. Yeri gəlmişkən, bu gün avtobus sahibləri "meriya"nın bu qərarından məhkəməyə şikayət edə bilərlər. Eyni əhvalat Bakı Elektrik Şəbəkəsinin Almaniyanın məşhur SİMENS şirkətinə verilməsindədə baş verib. Hökumət əhaliyə verən güzəştlərin ödənilməsini SİMENSdan tələb edib. Nəticədə ölkəyə pul gətirmək istəyən SİMEḰS mülkiyyət hüququnu müqəddəs bilərək ölkəmizi tərk edib.

İnternetdən istifadə edənlərə Rabitə nazirliyi tərəfindən heç bir əlavə xidmət göstərmədən onlardan 20 min manat tələb etmək də insan haqlarını pozmaqdır...

## "ETİMAD" QƏZETİ İLƏ BAĞLI QALMAQAL BARƏDƏ

Şeyxülislam barədə təhqiredici lətifə dərc etmiş qəzetin tam məğlubiyyəti ilə nəticələnmiş qalmaqal "söz azadlığının sərhədi varmı?" kimi fundamental bir suala cavab axtarmağı zəruri edir.

"Etimad"ın redaktorunu heç kim ürəkdən müdafiə etmədi, suallarıma cavab verən jurnalistlər bunu onunla izah etdilər ki, yumşaq desək, redaktorun şəxsi keyfiyyətləri o qədər də yüksək deyil. Qəzetlərdə və televiziyalarda kimi-kimi, Şeyxi və ona bərabər tutulan nüfuzluları "tənqid etməyin mümkün olduğu, ancaq onları təhqir etməyin yolverilməzliyi" barədə şərhlər verildi. Ancaq bu, səhvdir, demokratik ölkələrin ənənələrinə və qanunvericiliyinə görə, ictimai əhəmiyyətli insanları təhqir etmək adi vətəndaşı təhqir etməkdən qat-qat asandır.

Satış üçün nəzərdə tutulmayıb

Mən Şeyxi başa düşürəm və bu hadisədə onun yerində olmağımı istəməzdim, ancaq qalmaqalın miqyasını və qəzetin bağlanmasını artıq hesab edirəm. Karikatura və lətifə heç də iddiaçının istədiyinə uyğun, yəni "böhtan" kimi qiymətləndirilə bilməz. Bundan əlavə, karikatura və lətifələrə siyasi diskussiyanın bir hissəsi kimi baxmaq lazımdır. Onlardakı ən emosional, hətta təhqiredici ifadələrə belə düzmək lazımdır. "Xalq Larri Flintə qarşı (People v. Larry Flint)" adlı məşhur amerika filmin qəhrəmanının sözlərinə görə, bu cür karikaturaların məqsədi ondan ibarətdir ki, cəmiyyətin sütunları olan adamları adi adamlar səviyyəsinə endirsinlər ki, bu "sütunlar" qəfil özlərinin müqəddəs və günahsız olduqlarına yəqinlik hasil etməsinlər. İmkanlı adamların üzərində vətəndaş nəzarətinin əsas vəzifələrindən biri elə bundan ibarətdir.

Qaldı "Etimad" qəzetinin redaktoruna, onu kimliyindən asılı olmayaraq müdafiə etmək lazım idi. "Xastlers" əyləncə jurnalın redaktoru, lap "Etimad"ın redaktoru kimi amerikan "şeyxülislamı" ilə məhkəmə çəkişməsinə çıxmış real şəxs olan Larri Flint məhkəmədə qələbəsindən sonra jurnalistlərə belə deyir: "Düzdür, mən pis adamam, ancaq əgər qanun məni müdafiə etsə, bilin ki, sizi daha artıq müdafiə edəcək."

P.S. Özəl telekanallardan xahiş edirəm ki, "Xalq Larri Flintə qarşı" filmini bir daha göstərsinlər, onda biz o filmin qəhrəmanları arasında üzümüzü görüb tanıyarıq.

Mətnin Sonu

* * *

# 6. Azadlığımızın Hüdudları və Etiqad Azadlığı (2003)

*Hikmət Hacızadə*

> *Elə bir vaxt gələ bilər ki, ... bizlərdən hər birimiz azlıqda qala bilər. Belə bir məqam üçün özümüzü də, başqalarını da hazırlamalıyıq.*

Sayğılı seminar iştirakçıları. İnsan haqlarına nəzər salarkən qarşılaşdığımız bəzi problemləri bu gün sizinlə birlikdə araşdırmaq və onun nəticələrini bizi bu gün narahat edən bir problemə - Etiqad Azadlığı probleminə tətbiq etmək istərdim.

Satış üçün nəzərdə tutulmayıb

**Azadlığımızın Hüdudları**

Müstəqillik qazandığımız son 12 ildə İnsan haqları ən populyar mövzu olub. Düzdür, Sovet Konstitusiyasında da insan haqları, söz, siyasi baxış, din azadlığı təsbit olunmuşdu, lakin bununla yanaşı, antisovet və antikommunist təbliğatı da qadağan edilirdi. Nəticədə bu azadlıqlardan heç nə qalmırdı.

İnsan haqları 1988-ci ildən - Xalq Cəbhəsinin proqramı yaranandan sonra yenidən geniş müzakirə edilməyə başladı. Həmin sənəddə insanın haqları bəşəriyyətin əsas dəyəri, onun qorunması isə dövlətin başlıca vəzifəsi kimi qiymətləndirilirdi. *Xüsusi qeyd edim ki, proqramda bu hüquqlar heç nə ilə məhdudlaşdırılmırdı, azadlıq haqqında gen-bol danışılır, məsuliyyət haqqında isə heç nə deyilmirdi.*

Ancaq AXC özü hakimiyyətə gəlib reallıqla qarşılaşdıqdan sonra bu hüdudsuz azadlıq tədricən gödəlməyə başladı. Düzdür siyasi partiyalar açıq fəaliyyət göstərmək hüququ, hökuməti tənqid etmək imkanı qazandılar. Lakin aşağıdakı suallar yaranmağa başladı: müharibə aparan ölkədə ordudan açıq yazmaq olarmı? iqtidarın icazəsi olmadan mitinq keçirmək olarmı? prezidenti mətbuatda söymək olarmı? ölkədə İslam Respublikasını yaratmağa çağırışa icazə vermək olarmı? Bəs hüdudları necə müəyyən etməli: insan hara qədər söz deməkdə azaddır? Axı bəzən insanlar mətbəxdə söhbət edərkən prezidentin ölkədə diktatura rejimi yaratdığını, dövlətin sərvətlərini taladığını deyir, onda həmin insanların fikrini qanuni hakimiyyətin devrilməsinə çağırış kimi yozmaq olarmı?

Tarix göstərir ki, özünüifadə azadlığının hüdudları problemi İngiltərə, Amerika, Fransa, hətta İslam inqilabından sonra da olub.

Əziz seminar iştirakçıları, bir anlığa özünüzü həmin gənc respublikaların rəhbərinin yerində təsəvvür edin və elə qanunlar qəbul etməyə çalışın ki, azadlığı da təmin etsin, dövlətin əsaslarını da sarsıtmasın. Onda görəcəksiniz ki, bu məsələ çox çətindir.

***

**Gəlin, tarixə nəzər salaq.** Bəşəriyyət tarixində insan haqları uğrunda mübarizəyə dair çoxlu fakt göstərmək olar. Lakin bu prinsip yalnız 18-ci əsrdə Amerika (1776) və Fransa (1789) inqilablarının gedişində qanunla dəqiqləşdirildi.

Bu mənəvi və hüquqi prinsip ondan ibarət idi ki, insanlar cinsindən, millətindən, dinindən və sosial mənşəyindən asılı olmayaraq azad doğulurlar: onlar anadangəlmə yaşamaq, azadlıq və təhlükəsizlik məsələsində bərabərhüquqludurlar. *Bu hüququ ona*

Satış üçün nəzərdə tutulmayıb

*dövlət vermir, insan özü dünyaya gələndən həmin hüquqları qazanır, sadəcə ona görə ki, o insandır. Dövlət bu haqları məhdudlaşdıra bilməz, əksinə, dövlətin əsas vəzifəsi həmin haqları qorumaqdır.*

İnsan haqlarının bu cür yozumu elmdə şərti olaraq "fransız konsepsiyası" adlanır. Həmin dövr nə Amerika, nə də Fransa konstitusiyasında insan haqlarının məhdudlaşdırılmasının zəruriliyilə bağlı bir söz də tapa bilməzsiniz. Bu da aydındır. Çünki azadlıq uğrunda vuruşan adam, onun məhdudlaşdırılması barədə düşünməyə meylli deyil.

Həmin vaxtlar Fransa inqilabı və "hüdudsuz azadlıq"la bağlı Fransa konsepsiyası Avropada diqqətlə öyrənilirdi. Bu konsepsiyaya qarşı nəinki köhnə feodal ideoloqları, həmçinin İngiltərənin məşhur liberalları çıxış edirdi. Belə ki, məşhur ingilis filosofu " liberalizmin atası" sayılan Ceremi Bentam (Jeremy Bentham) (1748-1832) fransalıların insan haqları konsepsiyası ilə kökündən razılaşmırdı: "İnsanın anadangəlmə və cəmiyyətdən azad heç bir hüququ yoxdur. Real həyatda cəmiyyət insana nə qədər azadlıq verirsə, insan ancaq o qədər azad ola bilər" - Bentam deyirdi[1].

Həmin tarixi diskussiyalardan artıq 200 il keçib. Bəli, bu gün insan haqları ilə bağlı "fransız" konsepsiyası dünyanın idealına çevrilib, fəqət demokratik ölkələrin hüquqi praktikasında "ingilis" konsepsiyası qalib gəlib. Həmin konsepsiyaya görə, real həyatda insan ancaq ona cəmiyyətin və dövlətin verdiyi hüquqa malikdir.

Bu mənada BMT-nin İnsan Haqları üzrə Ümumi Bəyannaməsinə baxaq. Bəyannamədə insanın iyirmi səkkiz anadangəlmə və ayrılmaz hüququ təsbit olunur və *yalnız 29-cu maddədə tələb olunur ki, insan cəmiyyətlə hesablaşmalıdır,* çünki yalnız cəmiyyətdə insanın inkişafı və hüquqlarının reallaşması mümkündür... Bu kimi müddəa İnsan haqları üzrə Avropa konvensiyasında da özünə yer tapıb.

Bu gün hətta demokratik ölkələrin qanunvericiliyində insan haqlarının məhdudlaşdırılması ilə bağlı belə bir maddə var: "insanın .......................... hüququ var, lakin bu hüquq mənəviyyat, ictimai asayiş, cəmiyyətin rifahı, milli təhlükəsizlik naminə məhdudlaşdırıla bilər."

---

[1] İlk dəfə olaraq Bentam bu ideyanı irəli sürüb və iddia edirdi ki, insan haqları və azadlığı insanın və cəmiyyətin inkişafı üçün zəruri komponentdir. Bentama görə, insan anadan olduğuna görə yox, cəmiyyətə xeyirli olduğuna görə həmin hüquq və azadlıqlara malik olmalıdır.)

Satış üçün nəzərdə tutulmayıb

**Bəs onda insan haqlarından nə qaldı?** Axı, Azərbaycan reallığına baxanda, görürük ki, 29-cu "ingilis" maddəsi, demək olar ki, hər hansı azadlığın məhdudlaşdırılmasını qanuniləşdirə bilər.

Mitinq eləmək istəyirsiniz? – olmaz, çünki bu, ictimai qayda-qanuna təhlükə yarada bilər. Prezidenti söymək istəyirsiniz? – olmaz, çünki bu, milli əxlaqımıza ziddir. Allaha istədiyiniz kimi dua etmək istəyirsiniz? – olmaz, çünki bu, milli birliyə təhlükə yarada bilər və s. və i.

Və bütün bu "olmazlar" qanuni görünür! Bütün bunlar təkcə ölkəmizin yox, həm də istənilən demokratik ölkənin qanunlarında dəqiq yazılıb.
Deməli, bizim hüquqlarımız ictimai qayda-qanuna, əxlaqa, təhlükəsizliyə ziddirsə, məhdudlaşdırıla bilər. Əgər biz hüquqlarımızın müdafiəsi üçün, deyək ki, Amerika təcrübəsindən misal gətirsək, onda bizim məhkəmə deyəcək: Amerikada icazə verilən şeylərə, Azərbaycanda icazə verilməyə də bilər, axı biz başqa-başqa cəmiyyətlərdə yaşayırıq. Amerikalıların öz, azərbaycanlıların öz, türkmənlərin isə, deyək ki, tam başqa cəmiyyətləri var. Bu "düzgün" sözə nə etiraz eliyəsən?..

***

Dünyada bu problemin həllini ilk dəfə 1919-cu ildə ABŞ Ali Məhkəməsinin hakimi Oliver Vendel Holms təklif edib. Həmin zamana kimi ABŞ-da özünüifadə azadlığı ilə bağlı vəziyyət belə idi. Bayaq xatırlatdığım kimi, ABŞ Konstitusiyası özünüifadə azadlığına heç bir məhdudiyyət qoymurdu. Lakin Amerika məhkəmələri bu sahədə ayrı-ayrı ştatlarda, yaxud Konqresdə qəbul edilmiş qanunlara əsaslanırdılar. Həmin qanunlarda "ingiliscəsinə" ictimai qayda-qanun, mənəviyyat və dövlət təhlükəsizliyi və s. naminə məhdudiyyətlər nəzərdə tutulurdu. Bu gün bunu təsəvvür etmək çətindir, lakin XX əsrin əvvəllərində adamları, misal üçün, antimüharibə təbliğatına, hökuməti, yaxud Konstitusiyanı tənqid etdiyinə görə məhkəməyə çəkirdilər.

Antimüharibə vərəqələri yaymaq üstündə günahlandırılan rusiyalı mühacir Abrams və onun üç silahdaşının Ali Məhkəmədə işinə baxılarkən Holms ümumi mövqe ilə razılaşmayıb. Holms deyib ki, o bu vərəqələrdən milli təhlükəsizliyə *açıq və gerçək (*clear and present*)* - dərhal həyata keçə biləcək təhlükə *görmür.* Holms bəyan edib ki, *heç bir ideya və fikir dövlət tərəfindən təqib oluna bilməz və ziyanlı fikirlərə qarşı ən gözəl vasitə başqa fikirlərin irəli sürülməsindən ibarətdir.*

Əlbəttə, – Holms davam edib, – bu fikir mübadiləsi diskussiyalar üçün imkan olana qədər mümkündür, yəni biz əmin olmalıyıq ki, antihökümət çağırışları *dərhal* ictimai iğtişaşa, yaxud qanuni hakimiyyətin devrilməsinə səbəb olmayacaq.

Satış üçün nəzərdə tutulmayıb

Holmsun bu nəzəriyyəsi “azad ideya bazarı” adı alıb, sonradan inkişaf etdirilib və əvvəlcə ABŞ-da, müharibədən sonra isə Avropada tətbiq edilib.

Gördüyünüz kimi, Holms insan haqları ilə bağlı “ingilis” konsepsiyasına əsaslanaraq özünüifadə azadlığının sərhədləri problemini aradan qaldıra bilib. Beləliklə, BMT-nin İnsan haqları Ümumi Bəyannaməsinin 29-cu “ingilis maddəsi” probleminin həlli üsulu tapılıb və hazırda demokratik ölkələrdə uğurla istifadə olunur.

Əgər bizim məhkəmələr O.Holmsın “azad ideya bazar”ına əsaslansalar, onda dinc mitinqlər keçirmək, hökumətin əleyhinə tənqidlər, hətta təhqirlər söyləmək hüququmuzu məhdudlaşdırmaq mümkün olmayacaq. Hətta aydın görünsə ki, hər hansı ideyanın yayılması ictimai təhlükə yaradır, lakin o, cəmiyyət üçün *açıq və gerçək* təhlükə törətmir, yəni, əgər cəmiyyətin həmin ideyanı yayanı inandırmaq üçün diskussiya açmağa, yaxud kompromis mövqe formalaşdırmağa imkanı varsa, onda həmin baxışların yayılmasının qarşısını almaq olmaz...

## ETİQAD AZADLIĞI VƏ AZAD İDEYA BAZARI HAQQINDA

Etiqad azadlığını hər hansı dinin həqiqiliyi, yaxud dini islahatlar problemlərilə tez-tez qarışıq salırlar. Əslində isə bu problem: a) dindar adamın və cəmiyyətin arasında olan mənəvi problemləri; b) dindar adamla dövlət arasında olan hüquqi problemləri əhatə edir.

*Din azadlığı problemlərinə* qeyri-ənənəvi sektalar, missionerlər, dindar adamın hüquqi imtiyazları, dini icmaların fəaliyyətinin maliyyə tərəflərilə bağlı problemlər, eləcə də “dinin siyasi məqsədlərlə istifadəsi” məsələsi aiddir.

Bu gün cəmiyyətimizi əsasən iki dini problem narahat edir. Bunlar qeyri-ənənəvi sektalar və onların yayıcıları olan missionerlər, eləcə də “siyasi islam”, yəni dünyanın heç bir yerində indiyə qədər həll edilə bilməyən “dinin siyasi məqsədlərlə istifadəsi” problemidir.

***

**Qısaca olaraq sektalar və missionerlər barədə.** Biz hamımız insan haqları barədə çoxsaylı beynəlxalq sənədlərdən xəbərdarıq. Bu sənədlərdə daim təkrar olunur ki, hər bir *şəxs özünə din, əqidə, yaşam tərzi seçməkdə azaddır* və hər bir adam *dövlət sərhədlərindən asılı olmayaraq* informasiya almaq və yaymaq hüququna malikdir. Bu müddəalar bizim

Satış üçün nəzərdə tutulmayıb

Konstitusiyada da var. Bütün bunlara baxmayaraq mən ehtimal edə bilərəm ki, seminar iştirakçıları arasında yeni sektalardan zəhləsi gedən adamlar da var və onlar hesab edirlər ki,  həmin sektalar milli birliyimizə ziyan vura bilər. Lakin özünü demokrat adlandıran insanın borcudur ki, emosiyalarını cilovlaya bilsin və bu problemə ağılla yanaşsın.

Soruşmaq gərəkdir ki, nəyə görə İslam missionerləri artıq 7 milyondan çox müsəlmanın yaşadığı ABŞ-da azad şəkildə məscidlər tikə bilir, lakin amerikalı missionerlərə müsəlman ölkəsində öz etiqadlarını yaymağa imkan verilməməlidir?

Sizin sektalara münasibətiniz pisdir? Ancaq Britaniya Ensiklopediyasını açsanız görərsiniz ki, orada yazılıb: "Şiələr – İslamda  xüsusi sektalar qrupudur" (Shi'ites - a distinct collection of sects in İslam). Bizdə "Yehovanın şahidləri" təqib olunduğu kimi, Səudiyyə Ərəbistanında da şiələr təqib edilir.  Əlavə edim ki, sektalar adətən heç kimin məşğul olmaq istəmədiyi aciz və miskin adamlarla məşğul olur...

Bu gün bu məsələdə siz çoxluq təşkil edirsiniz. Amma inanın, elə bir vaxt gələ bilər ki, ... bizlərdən hər birimiz azlıqda qala bilər. Belə bir məqam üçün özümüzü də, başqalarını da hazırlamalıyıq.

O ki qaldı *milli birlik* probleminə, bu başqa və böyük bir mövzudur, burada təkcə onu deyə bilərəm ki, bu gün biz bunu qəbul etməli və hətta sevinməliyik ki, cəmiyyətimiz yeni inkişaf mərhələsinə qədəm qoyur və bundan sonra bizim vahid bir həqiqətimiz, etiqadımız, vahid sevimli mahnımız və s. olmayacaq. Demokratik xalqı yalnız bir ideya birləşdirir: *"bütün insanlar azad doğulur və onların qanun qarşısında hüquqları bərabərdir".*

İctimai həyatın müxtəlif formalarından qorxmayın. *Müxtəliflik (plüralizm) informasiyanı doğurur.* Bu gün müxtəliflik sabitsizliyin amili sayılmır, o, uğurlu inkişafımızın amilidir.

***

**Siyasi İslam haqqında.** Burada vəziyyət bir qədər qəlizdir. Hər halda dünyanın heç bir yerində bu problem həll olunmayıb. Məlum olduğu kimi, İslam başqa dinlərdən onunla fərqlənir ki, insanın mənəvi dünyasına daxil olmaqla yanaşı, müsəlmanları Quran və Sünnədə yazılmış siyasi və hüquqi normalara əməl etməyə çağırır. Aydındır ki, istənilən mömin müsəlman İslam dövlətinin qurulması barədə fikirləşməyə bilməz.

İslamın yaranması dövrünün istənilən tədqiqatçısı təsdiq edər ki,  Quranda əks olunmuş siyasi və  hüquqi normalar öz dövrü üçün  əxlaq, insan haqları və sosial ədalət sahəsində olduqca mütərəqqi addım olub.

Satış üçün nəzərdə tutulmayıb

İslamın elan etdiyi bu cür normalar, məsələn, "allahdan başqa, heç kimə səcdə etmə; öldürmə; oğurlama; yalan danışma; zinakarlıq eləmə, imkansıza əl tut, haqsızlıqlarla vuruş,..." kimi əxlaqi normalar indidə öz aktuallığını itirməyib və ümumbəşəri xarakter daşıyır.

O ki qaldı İslamın hüquqi normalarına, burada vəziyyət acınacaqlıdır. Ötən 15 əsr ərzində dünya ədalətli cəmiyyət quruculuğunda çox irəli gedib, lakin İslamın siyasi və hüquqi sistemi sayılan Şəriət orta əsrlər səviyyəsində qalıb.

Liberal-demokratik və islam dövlətinin hüquq sistemlərinin əsas prinsiplərinə nəzər salaq:

| Liberal qanunvericilik | İslam qanunvericiliyi (Şəriət) |
|---|---|
| Bütün İnsanlar azad doğulur və onların qanun qarşısında hüquqları bərabərdir | -Kişilərin hüququ qadınların hüququndan çoxdur;<br><br>- Müsəlmanlar müsəlman olmayanlardan daha artıq hüquqa malikdir;<br><br>- Qurana və Bibliyaya tapınanların hüququ,<br>bütpərəstlərin hüququndan artıqdır;<br><br>-Köləlik qadağan deyil; |
| Hər hansı ayrı-seçkilik qadağandır. | Cinsi, dini və sosial əlamətlər baxımından ayrı-seçkilik mövcuddur. |

On beş əsr bundan əvvəl İslamın elan etdiyi mənəvi normalara bu gün əməl etmək olarmı? Şübhəsiz ki, olar!

Satış üçün nəzərdə tutulmayıb

Lakin Azərbaycan Respublikasının liberal hüquqi sistemini Şəriət prinsiplərilə əvəz etmək olarmı? Əlbəttdə ki, yox! Çünki cədvəldən də göründüyü kimi, indiki Konstitusiyamızla müqayisədə Şəriət geriyə doğru, insanın ayrı-seçkiliyinə doğru böyük addımdır.

Faktiki olaraq, İslam dövləti quruculuğunun (hüquqi sistemin Şəriət prinsipləri əsasında qurulması) təbliği qadınların, qeyri-müsəlmanların, dindar olmayanların diskriminasiyasıdır. Bu isə insan haqları üzrə beynəlxalq sazişlərə, eləcə də Konstitusiyaya daban-dabana ziddir.

***

İndi isə ictimai sahədə tez-tez təkrar olunan formulaya baxaq: “din siyasətdən ayrılmalıdır”, yaxud “İslamdan siyasi məqsədlər üçün istifadə etmək olmaz”? Qeyd edim ki, hələ əsrin əvvəlində Məmməd Əmin Rəsulzadə də bu məsələyə də toxunmuşdur: *“İnsan məscidə girəndə siyasəti yaddan çıxarmalıdır”.*

Bu ifadə nə deməkdir? Burada o nəzərdə tutulur ki, din xadimi öz dualarında siyasətə toxunmamalıdır? Yaxud məsciddə olan dindarlar siyasət haqqında heç nə danışmamalıdır?

Bəs biz hansı qanuna əsasən bu cür qadağalar qoymalıyıq? Belə bir qanun yoxdur! İnsan məsciddə də azad şəkildə öz fikrini bildirmək hüququna malikdir. Kimsə axunda və məscidə gələnlərə tövsiyyə edir ki, ancaq mənəvi mövzuda söhbət etsinlər. Məsələn: həqiqət və yalan; vicdan və satqınlıq və s. Məsciddə Qarabağ problemini müzakirə etmək olarmı? Məsciddə hansısa siyasətçinin vicdansız olması, seçki öncəsi verdiyi vədləri yerinə yetirməməsinə dair söhbətlər ola bilərmi? Bəs hakimiyyətdə olan prezidentin apardığı kursu tərifləmək olarmı? (İnanıram ki, əgər M.Ə.Rəsulzadədən soruşulsaydı ki, məsciddə müsavatçılığı təbliğ etmək olarmı? O, bu məsələyə çox da etiraz etməzdi.)

Məsciddə, partiya tribunasından, yaxud TV ekranlarından edilən yalnız o çıxışlar Konstitusiyamıza ziddir ki, orada hər hansı ayrı-seçkilik, zorakılıq, qadınlarla kişilər, dindarlarla, dindar olmayanlar arasında bərabərsizlik və s. təbliğ olunsun. Və aydındır ki, Azərbaycanda Şəriət dövləti qurmaq ideyasını müdafiə edən çağırışlar qəbul etdiyimiz prinsipə (bütün insanlar azad və bərabərhüquqlu doğulur) ziddir.

Beləliklə, əmin olduq ki, biz *dini siyasətdən ayıra bilmirik*. “Dünyada hər şey siyasətdir”. “İslamdan siyasi məqsədlər üçün istifadə etmək olmaz” formulası isə çox dumanlıdır. Demokratik prinsiplər dünyamızın gözəlləşdirilməsi və ədalətsizliklə mübarizə naminə islamın mənəvi dəyərlərindən istifadəni qadağan etmir. Demokrat müsəlmanların vəzifəsi isə islamın yüksək dini dəyərlərini onun köhnə hüquqi normalarından ayıra bilən

Satış üçün nəzərdə tutulmayıb

islahatlar keçirməkdir. Qərbin demokratik ölkələrində dindarlar artıq bu dini islahat yolunu keçiblər...

**Ancaq belə ehtimal edək ki,** hansısa bir məsciddə dindarlar danışırlar ki, onların nicatı islam dövlətinin qurulmasındadır. Biz həmin baxışların tərəfdarlarını dərhal həbs etməli, məscidi o saat bağlamalıyıqmı?

Tələsməyin, axı onlar bizim vətəndaşlarımızdır. Onların arasında bizim yaxınlarımız, qohumlarımız ola bilər. Həmin hadisəyə O.Holmsın "azad ideya bazarı" prinsipini tətbiq etməyə çalışın. Əgər Konstitusiyamıza *açıq və gerçək* (dərhal baş verə biləcək) təhlükə yoxdursa, onda həmin insanları açıq müzakirələr vasitəsilə öz fikirlərindən daşındırmaq üçün vaxtımız var. *İnsanları baxışlarına görə təqib etmək cəmiyyətimiz üçün pis ənənə ola bilər,* axı bizim hər birimiz də nə zamansa azlıqda qala bilərik.

Mətnin Sonu

* * *

## MÜSƏLMAN DÜNYASINDA NƏLƏR BAŞ VERİR VƏ AZƏRBAYCANDA DİN AZADLIĞININ GƏLƏCƏYİ

**Hikmət Hacızadə**
**"FAR" mərkəzinin vitse-prezidenti**
**III SECTOR JURNALI №7, Payız 2004**

*Məruzə Sülh və Demokratiya İnstitutunun 2003-cü ilin iyulunda Bakıda düzənlədiyi «Postsovet Azərbaycanında islam: vicdan azadlığı və regional təhlükəsizlik problemləri» adlı beynəlxalq konfransda oxunub.*

**Hörmətli konfrans iştirakçıları!**

Hər şeydən əvvəl, icazə verin, bu son dərəcə aktual konfransın təşkilatçılarına öz təşəkkürümü bildirim. Bu məruzəni hazırlayan gecə internetdə «Google News» saytına baxanda qollarım yanıma düşdü. Dünyanın bütün başlıca xəbərləri bu və ya başqa dərəcədə islamla bağlı terror aktları barədə idi. Tuşinoda terror aktı - 14 ölü, İraqda partlayış - 7 polis həlak olub, Pakistanda şiə məscidi dağıdılıb - 47 nəfər ölüb, Fələstində partlayış - dinc adamlar öldürülüb. Bunların hamısı bircə gündə olub. Şükür Allaha ki, hələlik Azərbaycanda terror aktı ilə bağlı heç bir xəbər vermirlər və biz hadisələrin bu istiqamətdə inkişafına heç vəchlə yol verməməliyik.

İslam fundamentalizminin yayılması, 11 sentyabr hadisələri, bunun ardınca Əfqanıstanda, İraqda, Türkiyədə (AKP-nin hakimiyyətə gəlməsini nəzərdə tuturam) və İranda baş verən hadisələr bir şeyi aydın göstərir ki, bütün müsəlman regionunda nəsə

Satış üçün nəzərdə tutulmayıb

vahid bir proses gedir. Mən bu prosesi müsəlman xalqlarının öz müqəddəratını yenidən təyinetmə prosesi adlandırıram.

Savadlılığın artması və islamın ilkin mənbələrinə yol tapmaq imkanlarının daha da genişlənməsi nəticəsində cəmi müsəlmanlar özlərinin bugünkü acınacaqlı vəziyyətlərini yenidən dəyərləndirməyə və bundan çıxış yolu axtarmağa başlayıblar. Təhsilin kütləvi surətdə yeni səviyyəyə yüksəlməsindən sonra yenidən öz müqəddəratını təyinetmə prosesinə dünya tarixində əvvəllər də rast gəlinib - buna bənzər hadisələr dini reformasiya dövründə və onun ardınca 17 və 18-ci əsrlərin demokratik inqilabları zamanı və əlbəttə ki, 20-ci əsrdə marksizm, trotskiçi anarxizm və maoizm kimi solçu ideyaların geniş yayıldığı dövrlərdə də baş verib. Sonuncu iki proses qanlı vətəndaş müharibələri və beynəlxalq münaqişələrdən sonra 20-ci əsrin axırlarında demokratiya, azad bazar və beynəlxalq əməkdaşlıq ideyalarının qələbəsi ilə nəticələnib. Buna görə də bizə yalnız müsəlman regionunu bürüyən indiki həyəcanların nəsə müsbət bir sonluğa gətirəcəyinə ümid etmək qalır.

**Bugünkü hadisələrə qədər müsəlman regionu üzərində hansı dünyagörüşü hakim kəsilmişdi?**

Çox təəssüflər ki, özünün bütün tarixi ərzində islam geniş dindarlar kütləsinin günahı üzündən Quranda təsbit edildiyi şəkildə, yəni Allahla insanlar arasında mənəvi-əxlaqi müqavilə kimi qəbul edilməmiş qalıb. Məhəmməd peyğəmbər insanları hər şeyə hakim kəsilən və əxlaqa qarşı laqeyd bütlərə sitayişdən onlardan düzlük, ədalət, şərlə mübarizə və sosial məsuliyyət tələb edən Allaha sitayişə gətirmək üçün nə qədər çalışsa da, dindarların əksəriyyəti müsəlmançılığı yalnız formal şəkildə qavrayaraq gücə sitayişdə davam edirdilər. Bu cür «xalq islamı»nın, «aşağı səviyyə islamı»nın məğzi hər cür üstün gücə - istər ailədə ata və ya ər, istərsə də rəis, hökmdar və yaxud hər şeyə qadir ilahi qüvvə olsun - tabe olmaqdır. Kefi istəyəndə səni incitməsin deyə üstün qüvvəyə dözülməli, ona qurban kəsilməliydi. Bu cür «aşağı səviyyə islamı»na qarşı mübarizə aparmağın işartılarına biz Quranın özündə də rast gəlirik: "Yaxşı əməl heç də (ibadət vaxtı) üzünüzü günçıxana və günbatana tərəf çevirməkdən ibadət deyil. Yaxşı əməl sahibi əslində Allaha məhəbbəti yolunda (və ya mal-dövləti çox sevməsinə baxmayaraq) malını (kasıb) qohum-əqrəbaya, müsafirlərə, dilənçilərə və qulların azad olunmasına sərf edən, əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə (ehtiyac və ya xəstəlik üz verdikdə) və cihad zamanı (məşəqqətlərə) səbr edənlərdir(2:177).

«Aşağı səviyyə islamı»na öz təbəələrini idarə etmək üçün ən münasib alət kimi baxan cürbəcür hakimlər bütün tarix boyu onu fəal surətdə dəstəkləyiblər. «Xalq» islamına, faktiki olaraq isə bütpərəstliyin bu yeni tipinə bütöv ruhani ordusu səylə xidmət göstərib, Allahın qəzəbinə tuş gəlməmək üçün ibadət vaxtı necə dayanmaq, necə düzgün namaz qılmaq barədə mülahizələrə saysız-hesabsız cildlər həsr ediblər. Bundan əlavə, islam haqqında heç bir təsəvvürü olmayan və əhalinin mövhumatçılığından öz çirkin məqsədləri üçün istifadə edən din libaslı xeyli şarlatan meydana çıxıb.

Satış üçün nəzərdə tutulmayıb

Əlbəttə, islam dünyasında müəyyən qədər «yüksək islam» tərəfdarı olan, Quranın mənəvi tələblərini düzgün dərk edən və isnanları formal dini mərasimlərə daha az diqqət yetirib, yalan danışmağa son qoyaraq cəmiyyət üçün faydalı işlə məşğul olmağa çağıran intellektuallar da vardı. Ancaq müsəlman cəmiyyətinin geriliyi ucbatından bu intellektualların çağırışları geniş dindar kütlələrdə öz əks-sədasını tapmırdı (Şərq cəmiyyətlərinin Qərb cəmiyyətlərindən geri qalmağa başlamasının səbəbləri məlum deyil. Bunun yeganə inandırıcı izahı Toynbinin haqqında söhbət açdığı coğrafi determinizm ideyası olaraq qalır).

Şərq ölkələrində belə bir dini vəziyyətin nə qədər davam edəcəyi məlum deyil, amma artıq orta əsrlərin son dövrlərindən başlayaraq Şərqin getdikcə Qərbdən daha çox geridə qaldığı müşahidə olunurdu. Şərq elitalarının mütərəqqi nümayəndələri bu geriliyi aradan qaldırmaq üçün hər cür islahatlar aparılmasına çalışırdı. Bu ölkələrdə şəxsiyyət və cəmiyyətin inkişafı yollarındakı əngəllərdən biri «aşağı səviyyə islamı»nın doğurduğu tam mövhumatçılıq və avamlıq hesab edilirdi. Çox təəssüflər olsun ki, savadsız əhalinin düşüncəsində «yuxarıdan» islahatlar aparmaq mümkün olmadı. Bu səbəbdən dini sferanın tam nəzarətdə saxlanılmasına qərar verildi.

Son 150 ildə dinə nəzarətlə bağlı bütün bu cəhdlərə nəzər salarkən onların eyniliyinə məəttəl qalırsan. Bu yaxınlarda 19-cu əsr Azərbaycan ədəbiyyatının klassiki Mirzə Fətəli Axundovun "Aldanmış kəvakib" hekayəsini bir daha oxuyarkən ədibin orta əsrdə yaşayan qəhrəmanı Yusif Sərracın adından təklif etdiyi dini islahat layihəsiylə rastlaşdım. Məhz bu layihə, çox təəssüf ki, müəllifin ölümündən çox-çox sonra, indi həm Türkiyədə, həm də Azərbaycanda tətbiq edilir:

> "Yusif şah buyurdu ki, vilayətlərdə hər kefi istəyən özbaşına özünü ruhani sinfinə daxil etməsin. Bu xüsusda mollabaşıdan icazə istəsinlər. Ruhani sinfi hər yerdə xalqın ehtiyacına kifayət miqdardan artıq olmasın. Bütün ruhanilərə dolanacaqlarına kifayət edəcək qədər xəzinədən maaş təyin etdi ki, səltənətə möhtac olsunlar, mənsəb sahiblərini şahın xidmətində zülm əhlinə çevirməsinlər.
>
> Məhkəmə işləri ki, səltənətin ən mühüm işlərindəndir, ruhanilərim əlindən alınıb mənsəb sahibləri içərisində doğrucul olanlara həvalə edildi ki, millət məhkəmə cəhətindən özlərini ruhanilərə möhtac görüb təkcə onlara müraciət etməsin və səltənətdən uzaq düşməsin.
>
> Buyurdu ki, dini vergilər hər yerdə sədaqətli adamlardan 4 nəfərə tapşırılsın, vilayətin füğərasına dəftər üzü ilə sərf olunsun və hesabi divana gətirilsin, füğərənin bəzisi dini vergilərdən fayda alıb bəzisi məhrum qalmasın. Əmr etdi ki, xüms və imam mal ı verilməsin. Belə ki, millət dilənçilik zillətindən azad olub sair xalq kimi öz peşəsi ilə məişət vasitəsi əldə etsin.
>
> Bu xüsusda mötəbər ruhanilər Yusif şaha fiqh kitablarından hökmlər çıxarıb göstərdilər".

Bu parçada dinin dövlətdən ayrılması və dini sfera üzərinə tam nəzarət qoyulması proqramı ilə rastlaşırıq. Həm orta əsrlərin sonlarında, həm də 19-cu əsrdə, Axundovun sağlığında dini praktikanın hansı vəziyyətdə olduğu bu mətndən tam aydın görünür.

Satış üçün nəzərdə tutulmayıb

Kədərli olsa da, bu gün də dini sfera elə həmin vəziyyətdədir. İndiki hökumət, demək olar ki, eynilə Yusif şahın proqramını həyata keçirir. Çox güman ki, demokratlar da hakimiyyətdə olsaydılar, onların hökuməti də bu proqrama riayət edərdi.

**Müsəlmanların yeni öz müqəddəratını təyinetmə dalğası**

Geniş dindar kütlələrin islamı qavraması ilə bağlı situasiya 20-ci əsrin ikinci yarısından başlayaraq dəyişməyə başladı. Yuxarıda da qeyd etdiyim kimi, bu, müsəlman regionunda ümumi savadlılığın geniş yayılması ilə bağlı idi. İslamın ilkin mənbələriylə, eləcə də digər ədəbiyyatlarla ilk dəfə tanış olmaq imkanı qazanan geniş dindar kütlələr özləri üçün yeni bir aləm kəşf etdilər. İnsanlar oxumağa başladılar, özünüdərk şüuru artdı; insan ləyaqəti anlayışı geniş yayıldı. Bunun ardınca isə insan öz müqəddəratının təyin etməyə başlayır.

Əvvəllər ailədə, cəmiyyətdə, dövlətdə istənilən üstün gücə sorğu-sualsız tabe olan müsəlmanlar birdən anladılar ki, onların dini saxta, görk naminə mənəviyyat deyil, həqiqi mənəviyyat tələb edir, cəmiyyət həyatı üçün daim səy göstərilməsini, həm də şərlə mübarizə aparmağı tələb edir. İlk islam mənbələrində yazılıb ki, heç də hər cür hakimiyyətə tabe olmaq lazım deyil. Hakimiyyət ədalətli olmalıdır. Ədalətli ola bilməsi üçün o, şəriətə əsaslanmalıdır. Başqa, məcazi şəkildə desək, əgər müsəlmanlar hakimiyyət haqqında düşünərkən əvvəllər adətən «Göydə Allah, yerdə padşah» formulunu təkrarlayırdılarsa, indi deyirlər: «Biz istəyirik ki, ədalətli qanunlarla, Allah qanunları ilə idarə olunaq, yəni biz islam dövləti istəyirik». Beləliklə, deyəsən, 20-ci əsrin sonlarında aşağılarda dini islahatlar baş verib. Bu da ondan ibarətdir ki, yuxarıda təsvir edilən və tamamilə bütpərəstlik dini olan «xalq islamı» öz yerini Qurana və peyğəmbərin əməllərinə əsaslanan «yüksək səviyyəli islama» təhvil verib...

Müsəlmanların şüurunda baş verən bu islahat, heç şübhəsiz, ictimai inkişaf yolunda irəliyə bir addımdır, amma bu islahat özüylə bərabər nəhəng problemlər də gətirib. Solçu hərəkat qırmızı terror, stalinizm və Pol Pot rejimi doğurduğu kimi, yeni müsəlmanlar da bizə İran inqilabının, taliban hərəkatının dəhşətlərini və «qara sentyabr»dan tutmuş «Əl-Qaidə»yə qədər geniş miqyaslı terror şəbəkələrini bəxş ediblər.

Adətən dini yenicə qəbul etmiş adamlarda olduğu kimi, yeni həqiqətə varan bəzi müsəlmanlara elə gəldi ki, bu, elə son həqiqətdir, digər dünyagörüşlərin hamısı zərərlidir və məhv edilməlidir. Yeni müsəlmanların islam dövlətinin yaradılması haqqında tələbləri üzərində xüsusi dayanmaq istəyirəm. Bugünkü Azərbaycan, formal da olsa, «bütün insanların, kişilərin, qadınların, dinə inananların və inanmayanların öz hüquq və ləyaqətlərinə görə anadan bərabər doğulmaları» prinsipinə əsaslanan liberal konstitusiya qanunları əsasında yaşayır. Ancaq biz indi belə bir şeylə qarşılaşırıq ki, hər bir «yeni» müsəlman dininə uyğun olaraq şəriət dövlətinin, kişilərə qadınlardan, dinə inananlara inanmayanlardan artıq hüquq verilən bir dövlətin yaradılmasını tələb edir.

Yada salaq ki, Mirzə Fətəli Axundov belə bir fenomenlə rastlaşmamışdı, o, yalnız «aşağı səviyyə islamı»na qarşı çıxırdı. Ancaq indiki Azərbaycan siyasi cəmiyyəti iki böyük problem! - «xalq islamı»nın doğurduğu cəhalətlə və bizim hamımıza «fundamentalizm»

Satış üçün nəzərdə tutulmayıb

adıyla tanış olan «yüksək səviyyəli islam»la mübarizə problemini həll etməlidir, çünki onların hər ikisi şəriət qanunvericiliyinin tətbiq olunmasını istəyir.

Əgər «xalq islamı» ölkənin uğurlu inkişafını əngəlləyirsə, «fundamentalizm» fərdi insan azadlığı və onun vətəndaş hüququnun bərabərliyinə əsaslanan demokratik dövlətin özünün mövcudluğuna təhlükə törədir. Azərbaycan İslam Partiyası liderlərindən birinin sözlərini xatırlayıram. O bildirir ki, «əlbəttə, biz demokratiya tərəfdarıyıq, ancaq mən istəyirəm ki, mən danışmağa başlayanda arvadım ağzını yumub öz yerində otursun». Belə bir situasiyada adamın ağlına həm «köhnə», həm də «təzə» müsəlmanlara totalitar şəkildə nəzarət qoyulmasından başqa heç nə gəlmir. İndiki Dini İşlər üzrə Dövlət Komitəsi də məhz bununla məşğul olur. Ancaq bizim demokratlar da hakimiyyətdə olsaydılar, yəqin ki, onlar da bu cür edərdilər. Belə ki, dini sferanın tənzimlənməsi ilə bağlı dərc olunmuş konsepsiyalarda Müsavat və Xalq Cəbhəsi partiyaları, demək olar ki, eynilə (çox güman ki, özləri də bilmədən) Yusif şahın həyata keçirdiyi proqramı təkrar edirlər. Görünür, hələlik bu proqramın alternativi yoxdur.

**Liberal islam mümkündürmü?**

Elə bilirəm ki, mümkündür. Məsələn, Bibliyada da göstərilir ki, kişi qadına nisbətən daha çox hüquqa malikdir. Xristianların bu müqəddəs kitabında köləliyin qadağan olunması haqqında heç nə yazılmayır və deyilir ki, «Allahınkı Allahdır, padşahınkı padşah». Amma hələ 17-ci əsrdə meydana çıxan xristian demokratlar müqəddəs kitabları ilə «Bütün insanlar anadan bərabər hüquq və ləyaqətlə doğulurlar» prinsipi arasındakı ziddiyyəti aşa biliblər. Xristian demokratların ilk liderlərindən biri - 17-ci əsr Ingiltərə inqilabının fəal iştirakçısı Riçard Overton öz ideyalarını belə ifadə etdib:

> «Biz bu dünyaya Allahın əli il göndərilmişik və hər birmizə anadangəlmə azadlıq və mülkiyyət hüququ verilib (sanki bu sözlər insanların ürəklərində həkk olunub ki, onlar heç zaman silinməsin) və hər bir insan öz təbiəti etibarilə özünün ağası, çobanı və peyğəmbəridir və onun öz azad istəyi olmadan heç kim onun üzərində belə bir hüquqa yiyələnə bilməz».

Xristian demokratlar qalib gəldilər, parlament kraldan üstün oldu, köləlik qadağan edildi, qadınlar kişilərlə bərabər hüquqlar aldılar və dövlətin dini işlərə qarışmasına son qoyuldu.

Belə bir fədakarlığa malik olan müsəlman demokratlar da mövcuddurmu? 20-ci əsr ərzində bu cür düşüncələr meydana çıxıb və bu gün də var. Onların arasında Əli Əbdürraziq (1888-1966), Fəzlur Rəhman (1919-1986), Əbdül Məcid Şərfi (1946) və iranlı Əbdül Kərim Sürüş kimi cəsarətli düşüncə sahiblərini xüsusilə qeyd etmək lazımdır. Onların islam dini ilə bağlı təklif etdikləri liberal islahatlar belə bir tezisə əsaslanır ki, nə Quranda, nə də Sünnədə siyasi dövlət quruluşunun necə olması barədə heç bir göstəriş yoxdur, ilkin mənbələrdə yalnız mömin müsəlmanların riayət etməli olduqları ümumi mənəvi qaydalar göstərilib. Siyasi və ictimai sistem quruculuğunu isə Quran insanlara

Satış üçün nəzərdə tutulmayıb

həvalə edir, onlar öz ardıcıllarından istifadə edərək həyatlarını özləri qurmalıdırlar. Bu zaman tez-tez Quranın aşağıdakı ayəsinə istinad edirlər:

«Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz. (Onlara) yaxşı işlər görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız» (3:110).

Liberallar qeyd edirlər ki, bu gün yayılmış formasında şəriət, Allahın tələbi deyil, insanların yaratdıqları hüquqi sistemdir və o da humanizm, fərdi azadlıq və hüquq bərabərliyi istiqamətində dəyişdirilə bilər.

Təəssüflər olsun ki, bu liberal alimlərin çağırışları, təzəcə savad görən və «fundamentalizm» tərəfdarlarına çevrilən müsəlman əksəriyyəti arasında o qədər də rəğbətlə qarşılanmır. Ancaq ümidimizi də itirməməliyik, hazırda İranda liberal islahatlara can atılması göstərir ki, müsəlmanların öz müqəddəratlarını təyin etməsinin növbəti dalğası heç də uzaqda deyil.

## Azərbaycanda liberal islam

Azərbaycana gəldikdə, burada mövcud situasiya Yaxın və Orta Şərq ölkələrindəkindən xeyli fərqlənir. 200 illik sekulyarizm təcrübəsi və əhalinin təhsil səviyyəsinin yüksək olması buna ümid etməyə əsas verir ki, bizim dindarlarımız liberal dəyərləri daha tez qəbul edəcəklər. Düzdür, ölkədə müstəqil dini icma və təşkilatlar xeyli çox olsa da, biz hələlik onların heç bir nümayəndəsindən «bəli, bütün insanlar hüquq və ləyaqətlərinə görə anadan bərabər doğulurlar» ifadəsini eşitmirik. Bununla belə, din fəallarından bir çoxunun ölkədə demokratik dəyişikliklərə fəal maraq göstərdiklərini, onların bir çoxunun demokratik aksiyalarda iştirak etdiklərini, bəzilərinin isə hətta hüquq-mühafizə təşkilatlarının üzvü olduqlarını görürük.

Biz onlara kömək göstərməli, demokratik ovqatlı din fəallarının ölkədəki və dünyadakı demokratik hərəkatın bir hissəsinə çevrilməsi üçün əlimizdən gələni etməliyik. Bundan başqa, müsəlmanlar demokratik dövlətin müsbət nümunəsini görməlidirlər. Hazırda isə bizim, necə deyərlər, demokratik dövlətdə baş verən korrupsiya və zorakılıqlara baxaraq onlar hökmən buna fundamentalist alternativ axtaracaqlar.

Bizim hökumət və Dini İşlər üzrə Dövlət Komitəsi başa düşməlidir ki, avamlıqla, eləcə də fundamentalizmlə təkcə repressiv metodlarla mübarizə aparmaq mümkün deyil. Əgər bu və ya digər dini təzahür cəmiyyət üçün açıq və birbaşa təhlükə (clear and present danger) törətmirsə, onu sıxışdırmaq lazım deyil. Burada konfrans iştirakçılarının diqqətini bir daha süni şəkildə yaradılan «qadınların baş örtüyü» probleminə cəlb etmək istəyirəm; bu problemin ortaya atılması nəticəsində minlərlə dindar qadın pasport ala bilməyib və bu səbəbdən onlar indiki prezident seçkisində iştirak etməyəcəklər.

Biz hamımız müsəlman fəallarından ölkədə müstəqillik və demokratiya məsələsində aydın mövqe gözləyirik. Ancaq eyni zamanda ölkə və dünya demokratları liberal dəyərləri anlamaq və qəbul etməkdə bu insanlara kömək etməlidirlər. Demokratiyaya meyil göstərən, ölkədə və dünyada nələr baş verdiyini anlamağa can atan din fəallarını müdafiə etmək və dəstəkləmək lazımdır.

Satış üçün nəzərdə tutulmayıb

Əgər biz bunu etməsək, nağıl qəhrəmanı Yusif şahın proqramını təkrar- təkrar həyata keçirmək məcburiyyətində qalacağıq. Halbuki həmin proqram bütün dünyada olduğu kimi, terror fəaliyyətinin güclənməsi ilə də nəticələnə bilər.

Mətnin sonu

* * *

Satış üçün nəzərdə tutulmayıb